**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**EMİN ARİF oğlu ŞIXƏLİYEV**

# ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ GEOSİYASİ MARAQLARIN TOQQUŞMASI KONTEKSTİNDƏ

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2018**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü

**Rəsmi opponentlər:** **Zəhmət Əbülfət oğlu Şahverdiyev**
AMEA-nın müxbir üzvü,
tarix üzrə elmlər doktoru, professor

**Havva İsa qızı Məmmədova**
Tarix üzrə elmlər doktoru, professor

**Nazim Rəhbər oğlu Məmmədov**
Tarix üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan tarixi” kafedrası

Müdafiə 06 oktyabr 2018-ci il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” iyun 2018-ci ildə göndərilmişdir.

**D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **V.B.Baxşəliyev**
**AMEA-nın müxbir üzvü**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Keçmiş SSRİ ərazisində baş vermiş genişmiqyaslı və həlli yolları düyünə salınan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zaman içərisində daha çox dövlətlərarası və qlobal problem xarakteri almışdır. XX yüzilliyin 80-ci illərinin sonunda Sovetlər İttifaqının siyasi məkanında meydana gəlmiş bu münaqişə ittifaq dağılandan sonra avtomatik olaraq iki yeni müstəqil dövlətin – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının dövlətlərarası probleminə çevrildi. Üzərindən 30 ilə yaxın bir müddət keçsə də, münaqişə öz siyasi və hüquqi həllinə hələ də qovuşmamışdır. Əvvəla, hər iki ölkədə qarşı tərəfə münasibətdə düşmən obrazı möhkəm yer almışdır. İkincisi, Ermənistan ilə Azərbaycan arasında "nə müharibə, nə də sülh" kimi qeyri-müəyyən vəziyyət davam edir. Hər iki variantın da nizama salınması mümkün olmadığına görə, problemin beynəlxalq hüquq normaları çərçivəsində həlli tələb edilir. Dünyanın aparıcı dövlətləri bu münaqişəyə münasibətdə müxtəlif mövqelərdə durduqlarından bu variant da real nəticə vermir. Tədqiqat işində münaqişənin həlli istiqamətində ortaya çıxan çətinliklərə və onun həllinə bilavasitə mane olan amillərə aydınlıq gətirilmişdir.

Qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etmələri, Ermənistanın yeritdiyi təcavüzkarlıq siyasəti hər kəs tərəfindən bilinsə də, məsələyə bu iddiaların sırf Ermənistan tərəfindən irəli sürülməsi şəklində baxmaq doğru olmaz. Müəyyən mənada bunlar həqiqətə uyğun olsa da, məsələnin mahiyyətini bütünlüklə açmır. Yəni önə sürülən iddiaların arxasında üzdə Ermənistan görünsə də, başda Rusiya olmaqla pərdə arxasında bu iddialara dəstək verən və maraqlı olan Qərb dövlətləri dayanır. Azərbaycanın problemli zonaya çevrilməsi onların da maraqlarına uyğundur. Tarixə nəzər yetirilsə, aydın görünər ki, XIX əsrin ikinci yarısına qədər Qərb dövlətləri erməni məsələsinə elə bir ciddi maraq göstərməmişlər. Düzdür, Rusiyanın erməni məsələsinə öz geosiyasi planlarında yer ayırmasının kökü bir qədər keçmişə dayanır, lakin problemin beynəlmiləlləşməsi məhz 1870-ci illərdən etibarən böyük dövlətlərin regionda milli mənafelərinin çulğaşması sayəsində mümkün olmuşdur. Hal-hazırda erməni məsələsinə maraq göstərən güclər ayrı-ayrılıqda bu dövlətdən və millətdən öz geosiyasi maraqları üçün istifadə edirlər. Tədqiqat işində böyük və regional dövlətlərin geosiyasi maraqların toqquşması kontekstində erməni məsələsinə baxışı gözdən keçirilmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduqları mövqe və yeritdikləri siyasət təhlil edilərək araşdırılmışdır.

Məlum olduğu kimi, "erməni məsələsi" geosiyasi rəqabətlər və maraqların toqquşması nəticəsində ortaya çıxaraq aktuallaşmış və beynəlxalq siyasətdə

özünəməxsus yer tutmuşdur. Şübhəsiz ki, geosiyasi rəqabətlər və toqquşmalar bəzi məsələlərdə özünü sivilizasiyalararası qarşıdurmalar fonunda da qabarıq şəkildə göstərir. Məhz bu mənada vaxtilə geosiyasi rəqabətlərin nəticəsi kimi ərsəyə gətirilən "erməni məsələsi"ni Qərb və Türk sivilizasiyaları arasındakı qarşıdurmanın törəməsi, daha dəqiq bir ifadə ilə, antitürk zehniyyət və fəaliyyətlərin təzahürü kimi də xarakterizə ertmək mümkündür. Heç təsadüfi deyildir ki, son zamanlarda elmi dairələrdə dünyada baş verən bir çox münaqişə və ziddiyyətlərin başlıca səbəbinin sivilizasiyaların toqquşması ilə əlaqələndirilməsi məsələsi daha çox müzakirə olunan mövzuya çevrilib. Bu düşüncənin qeyri-real olduğunu iddia edənlər də ola bilər və şübhə yoxdur ki, mövcuddur. Bir məsələni qeyd etmək lazımdır ki, sivilizasiyaların təsnifatına dair başlıca faktor kimi din amilinə xüsusi üstünlük verilsə də, milli amil heç bir şəkildə ikinci plana atılmamalıdır. Aparılan təhlillər onu deməyə əsas verir ki, Qərb dövlətlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ikili standartlar mövqeyindən çıxış etmələrinin və hər fürsətdə Ermənistanı dəstəkləmələrinin səbəbi, kökü tarixi keçmişlərə uzanan Qərb və Türk sivilizasiyaları arasındakı münasibətlər, antitürk zehniyyət və düşüncə tərzi ilə sıx əlaqədardır.

Bu bir həqiqətdir ki, Qərb ilə Türk sivilizasiyaları arasındakı münasibətlər tarix boyu həmişə gərgin və münaqişəli olmuşdur. Qərbdə türklərə qarşı nifrət hissinin güclənməsində keçmişdən miras qalan milli və psixoloji amillər əsas rol oynayır. Heç təsadüfi deyildir ki, hər iki sivilizasiya arasında keçmişdən günümüzə qədər davam edən gərginlik bilavasitə Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərə də öz təsirini göstərmiş, nəticədə Türk sivilizasiyasının daşıyıcılarından biri kimi Azərbaycan bundan ciddi yaralar alaraq, təhdid altında olan ölkələr sırasına daxil olmuşdur. Bu baxımdan məsələnin mahiyyətini anlamadan konfliktin görünməyən səbəblərinin aşkarlanması, Azərbaycana yönəlik oynanan oyunların açığa çıxarılması və gələcəyə doğru fəaliyyət proqramlarının planlaşdırılması qeyri-mümkündür. Məhz buna görədir ki, dissertasiya işində ilk növbədə Ermənistan Respublikasının Azərbaycana qarşı yeritdiyi təcavüzkarlıq siyasəti və onun pərdə arxası məqamları tədqiq edilməyə çalışılmış, problemin böyük və regional dövlətlərin geosiyasi maraqları kontekstində təhlilinə cəhd göstərilmişdir. Bu nöqteyi-nəzərdən Ermənistan Respublikasının hər yönüylə Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin tədqiq edilməsi, problemin geosiyasi maraqların toqquşması kontekstində araşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində aparıcı dövlətlərin tutduqları mövqe və ikili standartlar siyasətinin mahiyyətinin aşkara çıxararaq təhlil edilməsi təkcə elmi deyil, həm də böyük siyasi aktuallıq kəsb edir. Problemin hərtərəfli tədqiqinin aktuallığı bir sıra amillərlə izah oluna bilər.

Əvvəla, tədqiqat predmeti kimi seçilmiş mövzunun araşdırılması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin anatomiyasını dərk etməyə imkan verir.

İkincisi, dünyada müxtəlif adlar altında böyük siyasi oyunlar oynanmaqda, dünyanın siyasi xəritəsi dəyişdirilməyə çalışılmaqda, beynəlxalq münasibətlər sistemində qarşıdurmalar özünü göstərməkdədir. Geosiyasi maraqların toqquşmasının tərkib hissələrindən biri kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan tədqiqat işi bu problemləri təhlil etmək və lazımi elmi-siyasi nəticələr çıxarmaq baxımından da əhəmiyyətlidir.

Üçüncüsü, dünyada cərəyan edən geosiyasi oyunlar, böyük dövlətlərin və beynəlxalq təşkilatların bu kimi problemlərə fərqli münasibətləri, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ikili standartlar mövqeyindən çıxış etmələri ermənilərin istər siyasi, istərsə də dini baxımdan ərazi iddialarını daha da gücləndirmələrinə rəvac vermiş, Azərbaycan və bütövlükdə türklük üzərindəki təzyiqləri artırmışdır. Sırf bu səbəbdən Ermənistan Azərbaycana qarşı ərazi iddialarında xüsusilə din amilini qabartmaqdadır. Bu nöqteyi-nəzərdən aparılan elmi araşdırmalar Azərbaycanla bağlı həqiqətlərin öyrənilməsi, böyük dövlətlərin laqeyd münasibətlərinin ortaya qoyulması, Ermənistanın terrorizmi müdafiə edən dövlət imicinin üzə çıxarılması və təbliğatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olan amillərin aşkar edilməsi baxımından da böyük siyasi aktuallıq kəsb edir.

Problemin çox ciddi şəkildə araşdırılmasına ehtiyac həm də ondan qaynaqlanır ki, tədqiq olunan mövzu kifayət qədər kompleks şəkildə öyrənilməmişdir. Düzdür, mövzunun tədqiqi sahəsində müəyyən işlər görülsə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi maraqların toqquşması kontekstində araşdırılması, mövcud konfliktin həllinə mane olan amillərin tam dolğunluğu ilə açıqlanması istiqamətində hər hansı bir konkret və bitkin tədqiqat işi mövcud deyil. Bir sıra tədqiqat əsərlərində bu səbəblərin izahı sırf Rusiya amili, Qərb dövlətlərinin ikili standartlar siyasəti çərçivəsində verilsə də, məsələnin tam şəkildə açılması həm lazımi səviyyədə deyil, həm də hər kəsin ümumi mənada bildiklərindən o tərəfə getmir və səbəbləri təfsilatlı olaraq göstərilmir. Biz bu çatışmazlıqları nəzərə alaraq, faktiki materiallar əsasında problemin görünməyən tərəflərini açıb ortaya qoymağa çalışmışıq. Amma bu, o demək deyildir ki, araşdırdığımız problemin tam həllinə nail olmuşuq. Təbii ki, bizə də bəlli olmayan bir sıra cəhətlər mövcuddur. Məhz bu baxımdan öyrənilən problemlə bağlı fikir və mülahizələrimizi müzakirə üçün açıq hesab edir, bu istiqamətdə geniş müzakirələrin keçirilməsinə ciddi ehtiyac olduğunu bildiririk.

**Tədqiqatın obyekti** geosiyasi rəqabətlərin və qarşıdurmaların törəməsi kimi ortaya çıxan “erməni məsələsi”nin beynəlxalq siyasətdə yerinin və rolunun

dərindən təhlil edilməsi, Ermənistanın Azərbaycana təcavüzünün geosiyasi maraqların toqquşması kontekstində araşdırılmasıdır.

**Tədqiqatın predmeti** böyük və regional dövlətlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduqları mövqe və ikili standartlar siyasətinin əsl mahiyyətinin təhlili, bu münaqişənin nizamlanması istiqamətində beynəlxalq təşkilatların və qurumların fəaliyyətinin obyektiv şəkildə araşdırılması, həmçinin problemin həlli istiqamətində ortaya çıxan çətinliklərə və onun həllinə bilavasitə mane olan amillərə aydınlıq gətirilməsidir.

**Problemin öyrənilmə səviyyəsi.** "Ermənistanın Azərbaycana təcavüzü geosiyasi maraqların toqquşması kontekstində" problemi xüsusi tədqiqat mövzusu olmasa da, onun ayrı-ayrı aspektləri araşdırılmışdır. Araşdırma zamanı azərbaycanlı, türk, rus, amerikan, ingilis, erməni və s. müəlliflərin elmi-tədqiqat əsərlərindən əsas mənbələr kimi istifadə olunmuşdur. Mövzu ilə bağlı əsərlərdən bəhs edərkən azərbaycanlı tədqiqatçılardan R.Mehdiyev, Ə.Həsənov, İ.Hacıyev, Y.Mahmudov, M.Qasımlı, A.İsgəndərli, C.Həsənli, H.Məmmədova, E.Əhmədov, Q.Hacıyev, A.Paşayev, N.Məmmədov, V.Quluzadə, A.Mirzəzadə, V.Arzumanlı, N.Mustafa, N.Məmmədov, V.İbayev, Ə.Abdullayev, F.İsmayılov, E.Cəfərli, Ə.Həbibbəyli, R.S.Ulusel, H.Hüseynov, N.Gözəlova, A.Məmmədli, R.Qarayev və digər müəlliflərin əsərləri üzərində xüsusilə dayanmaq lazımdır.

Akademik R.Mehdiyevin əsərlərində erməni təcavüzünün əsl mahiyyəti açılmış, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və bu iddiaların tarixi kökləri müəyyən edilmiş, tarixin müəyyən mərhələlərində xalqımıza qarşı törədilən soyqırımı cinayətlərinin pərdə arxası məqamları, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlətlərin yeritdiyi ikili standartlar siyasəti təhlil edilmişdir.[1]

Tarix üzrə elmlər doktoru, professor Ə.Həsənov öz əsərlərində Azərbaycanın beynəlxalq siyasətdə tutduğu yeri ümumi şəkildə nəzərdən keçirmiş, dövlətin xarici siyasətinin prinsipləri və istiqamətlərini, beynəlxalq təşkilatlarda iştirakı məsələlərini, dünyanın bir sıra ölkələri ilə əlaqələrini araşdırmış, SSRİ rəhbərliyinin XX əsrin sonlarında həyata keçirdiyi Qafqaz siyasətini təhlil etmiş, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının səbəblərini və Dağlıq Qarabağ münaqişəsinin köklərini açıqlamış, bu münaqişə ilə bağlı beynəlxalq ictimaiyyətin mövqeyini nəzərdən keçirmiş və Azərbaycan Respublikasının münaqişənin dinc yolla tənzimlənməsi sahəsində fəaliyyətini tədqiq etmişdir.[2]

---

[1]Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. Bakı: Azərnəşr, 2000, 203 s.; Mehdiyev R. Gorus – 2010: absurd teatrı mövsümü. Bakı: "Şərq-Qərb" nəşriyyatı, 2010, 96 s.; Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва: Аквариус, 2014, 280 с.

[2]Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.; Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Tarix və

Akademik İ.Hacıyev araşdırılan problemə ümumi nəzər salmış və erməni iddialarının əsassızlığını təkzibedilməz faktlar əsasında ortaya qoymuşdur. Müəllifin əsərlərində ermənilərin Azərbaycan torpaqlarına, xüsusilə də Naxçıvana qarşı uzun illərdən bəri yürütdükləri qəsbkarlıq siyasətinin əsl mahiyyəti və nəticələri təfərrüatı ilə öz əksini tapmışdır.[3]

Akademik Y.Mahmudov və tarix üzrə elmlər doktoru, professor K.Şükürovun müştərək yazdıqları "Qarabağ: real tarix, faktlar, sənədlər" adlı əsərdə ermənilərin Dağlıq Qarabağa məqsədli şəkildə köçürülməsi, DQMV-nin yaradılması və ağır nəticələri, müxtəlif dövrlərdə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağın işğalı və işğal olunmuş ərazilərdə törədilən cinayətlər işıqlandırılmışdır.[4]

AMEA-nın müxbir üzvü M.Qasımlının əsərlərində isə beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının tutduğu yer, Azərbaycanın xarici siyasəti probleminin konseptual-nəzəri əsasları araşdırılmış, onun prinsipləri, mahiyyəti, məqsəd və vəzifələri, qarşılıqlı əlaqələrin perspektivləri nəzəri cəhətdən təhlil edilmiş, Dağlıq Qarabağ məsələsinin dinc vasitələrlə həlli yolunda Azərbaycan diplomatiyasının fəaliyyəti işıqlandırılmışdır.[5]

Tarix üzrə elmlər doktoru, professor A.İsgəndərlinin əsərlərində Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı araşdırılmış, ermənilərin Cənubi Qafqazda məskunlaşması, onların Osmanlı imperiyasının tərkibində fəaliyyəti, XX əsrin əvvəllərində Azərbaycanda türk və müsəlmanların məruz qaldıqları cinayətlər, xüsusilə erməni hərbi birləşmələri tərəfindən Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, İrəvan, Urmiya, Maku və Xoyda türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları, dövrün ictimai-siyasi

---

onun problemləri, 2003, №1, s. 55-79; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005, 752 s.

[3]Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti // Naxçıvan jurnalı, 2001, №5, s. 37-44; Hacıyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 162 s.; Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012, 192 s.; Гаджиев И. Территориальные притязания и кровавые преступления армян против Азербайджана. Москва: АП Столица, 2016, 182 с.

[4]Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2005, 380 s.

[5]Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.; Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224; Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, 136 s.; Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.

məsələləri mövcud arxiv sənədləri və qərb müəlliflərinin əsərləri əsasında tədqiq edilmişdir.[6]

Tarix üzrə elmlər doktoru, professor C.Həsənlinin "SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı" adlı əsrində 1939-1953-cü illərdə Sovet-Türkiyə münasibətlərinin keçdiyi tarixi yol, onun həlledici mərhələləri və dönüş məqamları tədqiq edilsə də, yeni açıqlanan arxiv materiallarına istinadən İ.Sta-linin fitvası ilə Ermənistan və Gürcüstan Sovet Respublikalarının bu prosesdə fəal iştirakının, habelə Cənubi Qafqaz respublikaları arasında başlanmış əsəb müharibəsinin maraqlı tarixi mənzərəsi yaradılmışdır.[7]

Müəllifin digər əsərlərində 1918-1920-ci illərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu yer, Türkiyə, Almaniya, İngiltərə, ABŞ, Fransa, İtaliya və s. dövlətlərin Cənubi Qafqaza, o cümlədən Azərbaycana münasibətləri dərindən araşdırılmışdır.[8]

Tarix üzrə elmlər doktoru, professor H.Məmmədovanın "Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı əsərində münaqişənin tarixi kökləri, onun əsas mərhələləri, xüsusilə müstəqillik dövründəki vəziyyəti nəzərdən keçirilmiş, problemin Azərbaycan Respublikasının xarici siyasətindəki yeri və rolu tədqiq edilmiş, bu məsələ üzrə beynəlxalq təşkilatlarda aparılan işlər, regional güc mərkəzlərinin mövqeyi hərtərəfli və yeni faktiki materiallar əsasında təhlil olunmuşdur.[9]

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair beynəlxalq təşkilatların, o cümlədən BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən ardıcıl və sistemli şəkildə əks etdirilən qəbul edilmiş sənədləri (qərar, qətnamə, bəyanatlar və s.), son 30 il ərzində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı və terror aktlarının xronikasını, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş rayonların statistik göstəricilərini, dağıdılmış və məhv edilmiş maddi-mədəniyyət nümunələrinin siyahısını, eləcə də münaqişənin nizama salınması istiqamətində beynəlxalq təşkilatların fəaliyyətindəki zid-

---

[6]İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006, 396 s.; İsgəndərov A. 1915-1920-ci illərdə Azərbaycanda türk və müsəlmanlara qarşı həyata keçirilən soyqırımlar / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 75-92.; İsgəndərli A. Azərbaycan həqiqətləri: 1917-1920. Bakı: Elm və təhsil, 2012, 228 s.

[7]Həsənli C. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı: Adiloğlu, 2005, 543 s.

[8]Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: "GARISMA" MMC, 2009, 551 s.; Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərnəşr, 1993, 362 s.

[9]Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, 360 s.

diyyətli cəhətləri, buraxılan nöqsanları, eyni zamanda perspektivdə həlli mümkün və zəruri məsələləri özündə ehtiva edən siyasi elmlər doktoru, professor E.Əhmədovun 3 cildlik "Ermənistanın Azərbaycana təcavüzü" adlı kitabı da problemin araşdırılması və təhlili baxımından olduqca böyük əhəmiyyət kəsb edir.[10]

Tarix üzrə elmlər doktoru Q.Hacıyevin "Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi" adlı əsərində ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizə qarşı yönəlmiş əsassız ərazi iddiaları, erməni separatizmi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı məqsədyönlü siyasəti araşdırılmışdır.[11]

Müəllifin S.Nuriyevlə birgə yazdığı "Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti" adlı digər bir kitabında isə 1992-1995-ci illərdə ATƏT-in Minsk Qrupunda RF-nin nümayəndəsi V.Kazimirovun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yürütdüyü qərəzli, qeyri-obyektiv fikirlərinə qarşı Azərbaycan xalqının və elmi ictimaiyyətinin münasibəti bildirilmişdir.[12]

Uzun illər arxivlərdə saxlanılan və erməni vəhşiliyini ifşa edən sənədlərin aşkar edilərək, tarixin müəyyən mərhələlərində ermənilərin xalqımıza qarşı törətdikləri cinayətlərin öyrənilməsi baxımından tarix üzrə elmlər doktoru A.Paşayevin əsərləri də olduqca qiymətlidir.[13]

N.Məmmədovun "Geosiyasətə giriş" adlı iki cildlik kitabında dünyada cərəyan edən əsas geosiyasi hadisələr, planetin geosiyasi xarakteristikası, geosiyasi güc mərkəzləri və onlar arasındakı münasibətlər, qloballaşan dünyada geosiyasi məsələlərə yeni baxışlar, milli dövlət maraqları uğrunda mübarizə, yeni dünya nizamı və s. məsələlər haqqında ətraflı məlumat verilmiş, böyük və regional dövlətlərin müasir mərhələdə əsas siyasi məqsədləri işıqlandırılmışdır.[14]

---

[10] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 324 s.; Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 408 s.; Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti. III kiab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 368 s.

[11] Hacıyev Q. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı: Təknur, 2014, 400 s.

[12] Hacıyev Q., Nuriyev S. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti. Bakı:Təknur,2011, 131s.

[13] Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 535 s.; Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011, 328 s.

[14] Məmmədov N. Geosiyasətə giriş: 2 cilddə, I c., Bakı: Azərbaycan nəşriyyatı, 2011, 576 s.; Məmmədov N. Geosiyasətə giriş: 2 cilddə, II c., Bakı: Azərbaycan nəşriyyatı, 2011, 416 s.

Kitabın Ermənistan-Azərbaycan münaqişəsinin geosiyasi aspektlərinə həsr edilmiş bölməsi xüsusi maraq kəsb edir. Bu bölmədə münaqişənin tarixi köklərinə ümumi nəzər salan müəllif beynəlxalq təşkilatların və vasitəçi dövlətlərin fəaliyyətlərini gözdən keçirərək qeyd edir ki, dünya nizamını müəyyənləşdirən fövqəlgüclərin işğal faktına liberal yanaşması, dolayısı ilə təcavüzə göz yumması bu qənaəti gücləndirir ki, hazırda dünyada etnik-milli münaqişələrin həllində beynəlxalq hüquq deyil, digər siyasi maraqlar önə çəkilir.[15]

V.Quluzadənin "Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər)" adlı kitabında Azərbaycanın xarici siyasətinin keçdiyi yollar, qarşısında duran vəzifələr, xarici siyasətin prioritetləri, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində aparılan danışıqlar prosesi və s. məsələlər xronoloji ardıcıllıq və diplomatiyanın imkan verdiyi səmimiliklə açılıb göstərilmişdir.[16]

A.Mirzəzadənin "Qarabağ düyünü" adlı əsərində Dağlıq Qarabağ bölgəsinin tarixi, problemin mövcud vəziyyətinə toxunulmuş, Ermənistanın Azərbaycana təcavüzünün ağır nəticələri, Dağlıq Qarabağ probleminin həllinə dair Azərbaycanın mövqeyi, beynəlxalq təşkilatların münaqişəyə dair sənədləri təhlil edilmişdir.[17]

V.Arzumanlı və N.Mustafanın birgə yazdıqları "Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq" adlı monoqrafiyada düşünülmüş və planlı şəkildə həyata keçirilən məkrli siyasət nəticəsində öz tarixi-etnik torpaqlarından didərgin salınan azərbaycanlıların məruz qaldıqları deportasiya və soyqırımı məsələləri araşdırılmışdır. Bu mənada mövcud monoqrafiya Azərbaycan tarixinin qaranlıq səhifələrinin öyrənilib üzə çıxarılması istiqamətində tədqiq olunan əhəmiyyətli əsərlərdən biridir.[18]

N.Məmmədovun "Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal" adlı kitabında XX yüzillik ərzində Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, separatizmin tarixi obyektiv təhlil edilmiş, havadarlarına arxalanaraq ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, qanlı cinayətlər izlənmiş, torpaqlarımızın işğalı, xalqımızın başına gətirilən faciələr və deportasiyaya məruz qalmaları kimi acı reallıqlar tədqiq edilmişdir.[19]

---

[15]Məmmədov N. Geosiyasətə giriş: 2 cilddə, II c., s. 314.
[16]Quluzadə V. Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı: Azərbaycan nəşriyyatı, 1999, 288 s.
[17] Mirzəzadə A. Qarabağ düyünü. Bakı: "Azərbaycan" nəşriyyatı, 2012, 608 s.
[18]Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
[19]Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal. Bakı: Təhsil, 2009, 272 s.

V.İbayevin "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində" adlı əsərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, siyasi, hüquqi kökləri, inkişafı tədqiq edilmiş, problemin beynəlxalq hüquqi aspektləri, münaqişə zamanı törədilmiş beynəlxalq hüquq pozuntuları, onların hüquqi tövsifi, tətbiq olunan hüquq, məsuliyyət məsələləri nəzərdən keçirilmişdir. Müəllif belə bir nəticəyə gəlmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəbini Azərbaycanın daxilində axtarmaq düz deyil. Çünki bu səbəb Azərbaycandan kənarda "Böyük Ermənistan" yaratmaq məqsədi ilə ermənilərin Azərbaycana qarşı ərazi iddialarında ifadəsini tapmışdır. O, eyni zamanda münaqişənin həllinin düyünə düşməsinin səbəblərindən birini müxtəlif dövlətlərin maraqlarının regionda toqquşması ilə əlaqələndirmişdir.[20]

Ə.Abdullayev, Ş.Kərimov və B.Zahidovun birgə yazdıqları "Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri" adlı əsərdə bəşəriyyətin ən böyük problemlərindən olan terrorizmin mahiyyəti, əsas xüsusiyyətləri açıqlanmış və onunla beynəlxalq miqyasda mübarizə aparılmasının zəruriliyi əsaslandırılmışdır. Kitabda eyni zamanda erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsi kimi təhlil edilmiş, onun sülh və insanlıq əleyhinə törətdiyi cinayətlər faktlar əsasında göstərilmişdir.[21]

F.İsmayılovun "Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində" adlı əsərində müasir dövrdə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti və onun həlli istiqamətində ABŞ-ın yeritdiyi siyasət geniş şəkildə tədqiq edilmişdir.[22]

E.Cəfərlinin "Naxçıvanda erməni-Azərbaycan münaqişəsi" adlı əsəri araşdırılan mövzunun tədqiqi üçün xüsusi əhəmiyyət kəsb edir. Əsərdə erməni etnosunun tarixi ilə bağlı həqiqətlər araşdırılmış, onların çar Rusiyası tərəfindən Cənubi Qafqaza, o cümlədən Azərbaycana və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarına köçürülməsinin səbəbləri və nəticələri təhlil edilmişdir.[23]

Ə.Həbibbəyli "Sivilizasiyaların kəsişməsində türk dünyası" adlı əsərində bəşər sivilizasiyaları arasında özünəməxsusluğu ilə seçilən Türk sivilizasiyası,

---

[20]İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı: Elm, 2006, s. 37.

[21]Abdullayev Ə., Kərimov Ş., Zahidov B. Beynəlxalq terrorizm: onunla cinayət-hüquqi və kriminoloji mübarizənin aktual problemləri. Bakı: Qanun, 2006, 403 s.

[22]İsmayılov F. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı, 2001, 152 s.

[23]Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, 280 s.

onun qədim tarixi, eyni zamanda digər sivilizasiyalarla əlaqələri və seçkinliyi kimi problemlərdən bəhs etmişdir.[24]

R.S.Uluselin “Qloballaşma və türk sivilizasiyası” adlı əsərində müasir dünya inkişafının qlobal prosesləri kontekstində türk sivilizasiyasının seçkin mövqeyi, onun tarixiliyinin və çağdaşlığının vəhdəti problemləri araşdırılmış, türk sivilizasiyasının inkişaf prosesi dünya tarixinə qlobal baxışın yeni konsepsiyasından öyrənilmiş, Şərq və Qərb sivilizasiyalarının interaksiyasında problemin önəminə diqqət yönəldilmişdir.[25]

H.Hüseynov və T.Bəhərçinin birlikdə yazdıqları “Qərb-Şərq münasibətləri xristian və İslam təfəkkürü baxımından” adlı monoqrafiyada Qərb-Şərq və xristian-İslam münasibətləri fəlsəfi və tarixi baxımdan araşdırılmış, Qərb ictimai fikrinin və fəlsəfəsinin Şərqin maddi-mənəvi dəyərlərinə, elminə, fəlsəfəsinə, mədəniyyət və sivilizasiyasına münasibətinin ikili mövqeyi, dinin xalqlar və dövlətlər arasındakı ixtilaflarda oynadığı rol, “sivilizasiyaların toqquşması” təliminin mahiyyəti, Qərb-Şərq münasibətlərinin Azərbaycanın ictimai-siyasi fikrində yeri, Azərbaycanda dini tolerantlıq məsələləri tədqiq olunmuşdur.[26]

N.Gözəlovanın “Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində (1918-1920)” adlı əsərində 1918-1920-ci illərin qanlı hadisələri Britaniya kitabxanasının arxiv sənədləri əsasında araşdırılmışdır[27].

R.Qarayevin “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq” adlı monoqrafiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə aid BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi, İKT, NATO, GUAM kimi dünyanın aparıcı beynəlxalq hökumətlərarası təşkilatlar tərəfindən qəbul olunmuş beynəlxalq aktlar tədqiq edilmişdir.[28]

Qarabağ münaqişəsi ilə bağlı nəşr olunan və tədqiqatımızda istifadə etdiyimiz digər bir sıra əsərlər də ermənilərin Azərbaycan torpaqlarına qarşı əsassız iddialarının təkzib edilməsi baxımından son dərəcə əhəmiyyətlidir.

Türkiyə mənbələrində də Osmanlı dövründən başlayaraq, “erməni məsələsi”nin tarixinə aid, erməni cəmiyyətlərinin və siyasi təşkilatlarının törətdikləri

---

[24]Həbibbəyli Ə. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı: Elm və təhsil, 2011, 256 s.
[25]Ulusel R.S. Qloballaşma və Türk sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005, 152 s.
[26]Hüseynov H., Bəhərçi T. Qərb-Şərq münasibətləri Xristian-İslam təfəkkürü baxımından. Bakı: Təknur, 2005, 442 s.
[27]Gözəlova N. Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində (1918-1920). Bakı: “Turxan” NPB, 2014, 76 s.
[28]Qarayev R. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq. Bakı, 2012, 344 s.

cinayətlərə dair verdikləri məlumatlarda yeri gəldikcə Azərbaycanda törədilən qırğınlara da toxunulmuşdur.

Erməni xəyanətinin ağrısını yaşayan bir ölkə kimi Türkiyə Cümhuriyyətində erməni məsələsinə dair çox sayda əsərlər nəşr olunmuşdur. Xüsusilə E.Urasın erməni mənbələrini təhlil edərək yazdığı "Tarixdə ermənilər və erməni məsələsi" adlı kitab son dərəcə dəyərli və bu sahədə araşdırma aparan bütün tədqiqatçıların istisnasız olaraq yararlandıqları fundamental bir əsərdir.[29]

A.Kiçiyin "Erməni kilsəsi və türklər" adlı əsərində erməni terrorunda şəksiz çox böyük rolu olan erməni kilsəsinin tarixi incələnmiş,[30] E.İltərin "Erməni kilsəsi və terror" adlı əsərində erməni kilsəsinin terror aksiyalarında rolu və verdiyi dəstək geniş şəkildə tədqiq edilmişdir.[31]

Türkiyədə erməni iddiaları və terroruna həsr olunmuş ən sanballı tədqiqatlardan S.Laçınerin,[32] K.Gürünün,[33] A.Qazigirayın,[34] C.Anadolun,[35] T.Arının,[36] F.Armaoğlunun,[37] A.Gülərin,[38] Z.Özkanın,[39] A.Süslünün,[40] T.Başakın,[41] K.Kasımın[42] və digər türk araşdırmacılarının da əsərlərini göstərmək olar. Bu tədqi-

---

[29]Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, 798 s.

[30]Küçük A. Ermeni kilisesi ve türkler. Ankara: Ocak yayınları, 1997, 312 s.

[31]İlter E. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, 176 s.

[32]Laçıner S. Türkiye-Avrupa ilişkilerinde kültür ve medeniyet: tarihsel ve ideolojik kökenler // Liberal Düşünce Dergisi, 1999, cilt:4, №13, s. 39-68; Laçıner S. Ermenistan-Türkiye ilişkilerinde sınır kapısı sorunu ve ilişkilerde ekonomik boyut // Ermeni Araştırmaları Dergisi, 2002, sayı:6, s. 35-68; Laçıner S., Bal İ. İngiltere ermenileri, lobicilik ve ermeni sorunu // Ermeni Araştırmaları Dergisi, 2002, sayı:7, s. 71-124; Laçıner S. Ermeni kimlik bunalımı ve güç politikalarının bir ürünü olarak ermeni sorunu // 2023 Dergisi, 2002, sayı:12, s. 56-61; Laçıner S. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: Ankara Üniversitesi basımevi, 2003, s. 95-122; Laçıner S. Kafkasya'da türk yaklaşımı / Türk Dış Politikası. Uluslararası III. Türk dış poltikası sempozyumu tebliğleri. Ankara: USAK yayınları, 2009, s. 77-108.

[33]Gürün K. Ermeni dosyası. Ankara: Türk Tarih Kurumu, 1985, 215 s.

[34]Gazigiray A.A. Osmanlı'dan günümüze kadar vesikalarla ermeni terörünün kaynakları. İstanbul: Gözen yayınları, 1982, 672 s.

[35]Anadol C. Tarihin ışığında ermeni dosyası. İstanbul: IQ Kültür Sanat yayıncılık, 2001, 496 s.

[36]Arı T. Amerika'da siyasal yapı: lobiler ve dış politika. İstanbul: Alfa yayınları, 2000, 311 s.

[37]Armaoğlu F. 20. yüzyıl siyasi tarihi 1980-1990: 2 ciltte, II c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 1991, 336 s.; Armaoğlu F. 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara: Türk Tarih Kurumu, 1997, 821 s.

[38]Güler A., Akgül S. Sorun olan ermeniler. Ankara: Berikan yayınları, 2003, 425 s.; Güler A. Sorun olan Avrupa Birliği. Ankara: Türkar yayınları, 534 s.

[39]Özkan Z. Tarihsel akış içerisinde terörden poltikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001, 282 s.

[40]Süslü A. Ermeniler ve 1915 tehcir olayı. Van: Yüzüncü Yıl Üniversitesi Rektörlüğü, 1990, 244 s.

[41]Başak T. İngiltere'nin Kafkasya politikası ve ermeni şorunu (1917-1918) // Ermeni Araştırmaları Dergisi, 2013, sayı:45, s. 93-125.

[42]Kasım K. Ermeni Sorunu'nun Uluslararası İlişkiler Boyutu / Ermeni Sorunu el kitabı, Ankara: TEİMK ve ASAM yayınları, 2003, s. 123-138; Kasım K. Türkiye'nin Kafkasya politikası: fırsatlar ve güvenlik problemleri / Türk Dış Politikası. Uluslararası III. Türk dış poltikası sempozyumu tebliğleri. Ankara,

qatlar problemin dünəni və bu günü, ermənilərin törətdikləri cinayətlər, eyni zamanda "erməni kartı"nın regional siyasət strategiyasının mühüm amil olması ilə bağlı ciddi təhlillərin və tarixi paralellərin aparıldığı qiymətli mənbələrdir. Habelə Türkiyədə nəşr olunmuş arxiv sənədlərindən ibarət toplular, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş çox sayda kitab və məqalələr də böyük əhəmiyyətə malikdir.

"Erməni məsələsi" ilə bağlı Rusiya tarixşünaslığında da maraqlı və obyektivliyin qorunması baxımından mühüm elmi əhəmiyyət kəsb edən tədqiqatlar vardır. Rus tarixçilərindən S.N.Qlinka,[43] B.K.Yenikolopov,[44] N.N.Şavrov,[45] S.B.Şostakoviç[46] və digərlərinin əsərləri "erməni məsələsi"ndə Çar Rusiyasının, rus strateqlərindən A.Duqin,[47] V.Kazimirov[48] və başqalarının əsərləri isə bəhs olunan problemdə hal-hazırda Rusiya dövlətinin oynadığı rolu öyrənmək baxımından bizə əhəmiyyətli dərəcədə kömək edir.

Erməni tarixi ilə bağlı saxtakarlıqları üzə çıxaran çox sayda elmi araşdırmaların müəllifi, rus tarixçi alimi O.Kuznetsovun "XX yüzillikdə transmilli erməni terrorunun tarixi" adlı kitabı olduqca qiymətlidir. Tarixi-kriminoloji mahiyyət daşıyan, ermənilər tərəfindən dünyanın 22 ölkəsində törədilən 300-dən çox terror aktından bəhs edən əsər SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin xidməti materialları, erməni terrorçularının Azərbaycan və Rusiya ərazisində törətdikləri cinayətlərə dair cinayət işləri əsasında yazılıb.[49]

Müəllifin son dərəcə maraq doğuran "Dağlıq Qarabağ münaqişəsi: sivilizasiyaların toqquşması?" adlı məqaləsində isə Dağlıq Qarabağ münaqişəsinin müxtəlif ideoloji və etnopsixoloji aspektləri Samuel Hantinqtonun "sivilizasiyaların toqquşması" nəzəriyyəsi kontekstində nəzərdən keçirilmiş,

---

USAK yayınları, 2009, s. 61-76; Kasım K. Origins and consequences of the Karabakh conflict // Basic principles for the settlement of the conflicts on the territories of the GUAM States, Baku: 15-16 april, 2008, p. 64-68.

[43]Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России, с кратким предварительным изложением исторических времен Армении. Баку: Элм, 1990, 142 с.

[44]Ениколопов И.К. Грибоедов и Восток. Ереван: Айпетрат, 1954, 196 с.

[45]Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцамъ. Баку: Элм, 1990, 156 с.

[46]Шостакович С.В. Дипломатическая деятельность А.С.Грибоедова. Москва: изд-во "Социально-экономической литературы", 1960, 294 с.

[47]Dugin A. Rus jeopolitiği Avrasyacı yaklaşım. İstanbul: Küre yayınları, 2004, 391 s.

[48]Казимиров В. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. Москва: изд-во "Международные Отношения", 2009, 456 с.

[49]Кузнецов О. История транснационального армянского терроризма в XX столетии. Баку: издательский дом "Шарг-Гарб", 2015, 412 с.

Ermənistan-Azərbaycan qarşıdurmasının səbəbləri və problemin həlli perspektivləri təhlil olunmuşdur.[50]

Mövzu ilə bağlı Qərbdə nəşr olunan əsərlərdən danışarkən ilk növbədə fransız alimi J.Malevilin "Армянская трагедия 1915 года" adlı əsərini qeyd etmək lazımdır. Müəllif çoxsaylı ermənipərəst alimlərinin əksinə olaraq baş vermiş hadisələri obyektiv təhlil etməyə çalışmış və tarixdə ilk müstəqil erməni dövlətinin məhz İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulduğunu göstərmişdir.[51]

Avstriya alimi E.Fayqlın "Erməni milli kilsəsinin zəfəri və tragediyası" adlı məqaləsi[52] və "Erməni mifomaniyası" adlı kitabı da[53] reallığı əks etdirmək baxımından diqqəti cəlb edir. Müəllif inandırıcı dəlillərlə erməni terrorizminin iç üzünü açmış, eyni zamanda erməni kilsəsinin terror siyasətini araşdırmışdır.

Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq arenada təsdiqi üçün amerikan alimi S.Uimzin "Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri" adlı əsəri çox dəyərli mənbədir. Kitabda erməni kilsəsinə olan real alim mövqeyi və problemə cəsarətli yanaşması diqqətəlayiqdir. Erməni millətinin mənşəyindən və "erməni xristianlığı"nın spesifikliyindən söhbət açan müəllif onların xristianlığını şübhə altına alaraq, regionda etnik təmizləməyə fitva verənlərin məhz erməni kilsəsi olduğunu qeyd etmişdir.

Tədqiqatçı eyni zamanda ABŞ-ın Ermənistana münasibətdə tutduğu yanlış mövqeyə də öz ciddi etirazını bildirmiş, minlərlə Anadolu və Azərbaycan türkünün tökülmüş qanında, yurd-yuvalarından didərgin düşmüş bir milyondan çox azərbaycanlının acınacaqlı taleyində əsas günahın məhz Rusiya ilə ABŞ-ın üzərinə düşdüyünü qeyd edərək, tutarlı faktlar əsasında Avropa dövlətlərini də ittiham etmişdir.[54]

Böyük dövlətlərin siyasi münasibətləri kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin araşdırılması problemini öyrənmək üçün ümumilikdə geosiyasi rəqabətlər və sivilizasiyalararası qarşıdurma məsələlərinə həsr edilmiş əsərlərin də mühüm əhəmiyyəti vardır. Məşhur sivilizoloq alim S.Hantinqtonun "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" adlı əsərində fərqli sivilizasiyaların daşıyıcıları arasında cərəyan

---

[50]Кузнецов О. Нагорно-Карабахский конфликт: «Столкновение цивилизаций»? // Кавказ & Глобализация: Журнал социально-экономических и политических исследований. Стокгольм, 2013, Т. 7, вып. 1-2, с. 93-108.
[51]Малевил Ж. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, с. 15.
[52]Feigl E. Ermeni milli kilisesinin zaferi ve trajedisi // Ermeni Araştırmaları dergisi, 2001, sayı:5, s.65-88.
[53]Feigl E. Ermeni mitomanyası. İstanbul: 2007, 168 s.
[54]Uimz S.A. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya şirkəti, 2004, 386 s.

edən qarşıdurmanın səbəbləri özünəməxsus şəkildə açıqlanmış və bu aspektdə Ermənistan ilə Azərbaycan arasında davam edən Qarabağ konfliktinə müəyyən qədər də olsa yer verilmişdir.[55]

Z.Bjezinskinin daha çox politoloji yönümdə və sırf amerikanpərəst nöqteyi-nəzərindən yazdığı "Böyük şahmat lövhəsi" adlı kitabı ABŞ-ın yeganə güc olaraq onun maraqlarının qorunmasına xidmət etsə də, əsərdə qlobal tarazlıqların pozulmasından, gələcəkdə ortaya çıxa biləcək hadisələrdən, şahmat lövhəsi üzərindəki geostrateji aktorların oyun üslubları və Azərbaycanın qarşılaşdığı problemlərdən də bəhs edilmişdir.

Geosiyasi baxımdan Azərbaycanın regional aktorlar olan Rusiya, İran və Türkiyə üçün böyük bir əhəmiyyət kəsb etdiyini vurğulayan müəllif bu dövlətin Rusiya üçün əsas hədəfə çevrildiyini qeyd edərək göstərir ki, Azərbaycanın itaət etməsi Orta Asiyanın Qərbdən, xüsusilə də Türkiyədən qopması mənasına gəlir. Bu baxımdan Rusiya Azərbaycanın itaət etməsi üçün ona hərtərəfli təzyiqlər göstərmiş və Ermənistanla hərbi əməkdaşlıq qurmuşdur. Nəticədə, Azərbaycanın ərazi bütövlüyü Dağlıq Qarabağın itirilməsi ilə təhlükə altına düşmüşdür.[56]

Qədim tarixi keçmişə və mədəniyyətə sahib olduqlarını əsaslandırmaq üçün saxta tarixçilik metodologiyasına baş vuran erməni müəlliflərinin də mövzuya aid əsərlərini qeyd edib, səciyyələndirmək lazımdır. Bu alimlər erməni tarixini gördükləri kimi deyil, görmək istədikləri kimi yazmaqda və bunun təbliğatını aparmaqdadırlar. Tarixlərini daha da qədimlərə apararaq, dünya mədəniyyətini, yazını, astrologiyanı, mis və dəmir mədənçiliyini məhz özlərinin kəşf etdiklərini, dünyada insan həyatının Sevan gölü sahillərindən başlandığını önə sürməkdə və özlərini xristianlığı ilk qəbul edən xalq olaraq görməkdədirlər. Onlar öz əsərlərində həddən artıq mübaliğələrə də yol verərək, Nuh peyğəmbərin erməni olduğunu və erməni dilində danışdığını iddia edirlər.[57] Məlum məsələdir ki, belə iddialar elm adına heç bir həqiqəti özündə əks etdirmir. Bütün bunlar sadəcə olaraq təxəyyüllərə əsaslanan əfsanəvi düşüncələrdir. Məsələyə dini aspektdən yanaşsaq, Adəm peyğəmbər bəşəriyyətin ilk atası sayıldığı kimi, Nuh peyğəmbər də Dünya Tufanı səbəbiylə bəşəriyyətin ikinci atası sayılır. Belə bir vəziyyətdə, hər hansı milli mənsubiyyətdən söhbət gedə bilməz. Yox, əgər Hz. Nuh ermənilərin də iddia etdiyi kimi, ermənidirsə, o zaman ağla gələn ilk

---

[55]Huntington S.P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması. İstanbul: Okuyan Us yayınları, 2005, s. 418-423.

[56]Brzezinski Z. Büyük satranç tahtası: Amerika'nın önceliği ve bunun jeostratejik gerekleri. İstanbul: Sabah kitapları, 1998, s. 117.

[57]Балаян З.Г. Очаг. Ереван: Советакан грох, 1984, с. 30; Шагинян М. Важное событие истории. "Литературная" газета, 1978, 13 сентября.

fikir budur: bəşəriyyət ermənilərdən törəmiş və bütün dillər erməni dili əsasında formalaşaraq, sonradan deformasiyaya məruz qalmışlar. Necə deyərlər, bax, budur müəmma!

Ədalət naminə deməliyik ki, K.Kerovpyan,[58] M.Abekyan,[59] Raffi[60] kimi bir sıra müəlliflər erməni xalqının qədim tarixi haqqında yekdil bir fikrin olmadığı, onların mənşəyi və tarixlərinin qədimliyi məsələsində ziddiyyətli məqamların mövcudluğu barəsində həmfikirdirlər.

Beləliklə, dissertasiya işinin mövzusunun öyrənilməsi səviyyəsindən aydın olur ki, problemin bəzi məsələlərinin tədqiqat obyekti olmasına baxmayaraq, kompleks şəkildə araşdırılmamışdır.

**Tədqiqatın mənbə bazası.** Tədqiqat işinin qarşısında qoyulan məqsəd və vəzifələrə nail olmaq üçün geniş və hərtərəfli mənbə bazası yaradılmışdır. İşin mənbə bazası içərisində ilk yerdə ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının xarici siyasətinə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktub, məruzə və s. sənədlər tutur. Bütün bu sənədlər xronoloji ardıcıllıqla "Müstəqilliyimiz əbədidir" adlı fundamental çoxcildlikdə nəşr edilmişdir.

Digər tərəfdən, ümummilli liderimizin tariximizin qaranlıq səhifələrinə uzun illərdən sonra işıq salan rəsmi hüquqi sənəd kimi imzaladığı fərman və sərəncamlar da böyük əhəmiyyətə malikdir. Bu fərman və sərəncamların verilməsi heç də təsadüfi deyildi. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il[61] və "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanları çox böyük uzaqgörən siyasətə, strateji məqsədlərə, tarixi ədalətsizliyə qarşı yönəlməklə qalmamış, tarixi yaddaşımıza qayıdış, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasəti ifşa olunmuşdur.[62]

Bu fərmanların əhəmiyyəti yalnız hadisələrə verilən siyasi qiymətlə məhdudlaşmır, eyni zamanda keçmiş tariximizə və mövcud problemlərə baxışları köklü surətdə dəyişdirməyi nəzərdə tutan çox mühüm dövlət sənədi, konseptual siyasi baxışlara əsaslanan mühüm bazadır. Heç təsadüfi deyildir ki, ümummilli

---

[58]Kerovpyan K. Mitolojik ermeni tarihi. İstanbul: Aras yayınları, 2000, 109 s.

[59]Абекян М. История древнеармянской литературы. Ереван: издательство Академии Наук Армянской ССР, том I, 1948, 524 с.

[60]Раффи. Самвел. Ереван: изд-во "Аястан", 1971, 480 с.

[61]Əliyev H. Müstəqilliyimiz əbədidir. XIII kitab. Bakı: Azərnəşr, 2004, s. 397-398.

[62]Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi: 2 cilddə, I c., Bakı: "OSKAR" NPM, 2012, s. 9-14.

lider Heydər Əliyevin azərbaycanlıların soyqırımı, deportasiyası və qaçqınlıq tarixi yeni-yeni araşdırmaların və elmi tədqiqat işlərinin ərsəyə gəlməsinə stimul yaratmış və yaratmaqdadır.

Bununla yanaşı, Heydər Əliyevin xarici siyasət xətti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyəti ilə bağlı nəşr olunan material və toplular da tədqiqata cəlb edilmişdir.[63]

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən və onu daha da zənginləşdirən cənab İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında, Baş nazir vəzifəsində və Prezidentliyi dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsindəki gərgin işinə dair sənədlər də dissertasiyanın mənbə bazası içərisində xüsusi yer tutur.[64]

Ermənilərin Anadolu və Azərbaycan türklərinə qarşı cinayətləri, bu cinayətlərin pərdə arxasındakı böyük güclərin hərtərəfli dəstəyi barədə arxivlərdə, rəsmi sənədlərdə və internet materiallarında da çox sayda tarixi faktları özündə ehtiva edən qiymətli sənədlər vardır ki, bunlar da tədqiqata cəlb edilərək, əsərdə öz əksini tapmışdır.

Tədqiqat işinin dəyərini artıran ən vacib məqamlardan biri də tarixi reallıqların öz obyektiv mahiyyətini qoruması baxımından Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlərdən istifadə edilməsidir.[65] İngiltərə ar-

---

[63] Əliyev H. Müstəqilliyimiz əbədidir. XI kitab. Bakı: Azərnəşr, 2003, 452 s.; Əliyev H. Müstəqilliyimiz əbədidir. XVI kitab. Bakı: Azərnəşr, 2005, 552 s.; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXV kitab. Bakı: Azərnəşr, 2008, 520 s.; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXX kitab. Bakı: Azərnəşr, 2010, 512 s.; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXXII kitab. Bakı: Azərnəşr, 2010, 512 s.; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXXIII kitab. Bakı: Azərnəşr, 2011, 480 s.; Həbibbəyli İ. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: "Əcəmi" NPB, 2013, 272 s.; Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: "Əcəmi" NPB, 2013, 296 s.; Zenkoviç N. Heydər Əliyev. Tale yolları. Bakı: Azərnəşr, 2007, 608 s.; Səfərli F. Heydər Əliyev irsi - əbədiyaşar təlim. Naxçıvan: "Əcəmi" NPB, 2014, 200 s.

[64] Əliyev İ. Azərbaycan-Amerika strateji əməkdaşlığının üfüqləri // Dirçəliş – XXI əsr, 1998, №3-4, s. 32-34.; AŞ PA sədrinin müavini və büro üzvü İlham Əliyevin çıxışı // Dirçəliş – XXI əsr, 2003, №64, s. 29-31.; İlham Əliyev: Biz hər şeyə nail olacağıq. Bakı: "OSCAR" NPM, 2003, 268 s.; İlham Əliyev: Heç bir təzyiq məni öz yolumdan çəkindirə bilməz. Bakı: "OSCAR" NPM, 2003, 236 s.; Əliyev İ. İnkişaf – məqsədimizdir. I kitab. Bakı: Azərnəşr, 2008, 424 s.; Əliyev İ. İnkişaf – məqsədimizdir. III kitab. Bakı: Azərnəşr, 2009, 416 s.; Əliyev İ. İnkişaf – məqsədimizdir. XXIX kitab. Bakı: Azərnəşr, 2016, 400 s.

[65] The National Archives of United Kingdom, Public Record Office Foreign Office Documents (PRO FO): 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917; PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917; PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918; PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 255, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Tuesday, October 23th, 1917; PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7, 1917; PRO. CAB. 24/29, G.T.2347, General Barter, Russia to C.I.G.S. War Office, no: 1310, October 15th, 1917; PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3, 1917.

xivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun Böyük Güclər, xüsusilə də İngiltərə üçün əhəmiyyətini göstərən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur. Həqiqətən də Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv meyarlar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Çünki Qərb dünyasında ermənilər və onların havadarları istər Azərbaycan, istərsə də Türkiyədəki materialların obyektiv deyil, tərəfli olduğu yönündə təbliğat aparırlar. Ermənilər tərəfindən törədilən cinayətlərin Azərbaycan və Türkiyə arxivlərində yer alan sənədlər əsasında isbatının Qərb ictimaiyyətində o qədər də inandırıcı olmadığını nəzərə alaraq və ya belə düşünərək, reallıqların məhz İngiltərə arxivlərindəki sənədlərə söykənərək aşkara çıxarılmasını qarşıya qoyduq.

Arxiv materialları ilə yanaşı rus, ingilis, türk, erməni alimlərinin və rəsmi nümayəndələrin tarixi sənəd mahiyyətindəki əsərlərinə də geniş yer verilmişdir. Hesab edirik ki, əldə edilən materialların təhlili Böyük Güclərin erməni məsələsi ilə bağlı siyasətinin müəyyən cəhətlərini yenidən gözdən keçirməyə, eyni zamanda tarix boyu bu istiqamətdə apardıqları siyasəti səciyyələndirən məqsəd və mahiyyətini daha geniş şəkildə anlamağa imkan yaradacaqdır.

Beləliklə, istifadə olunmuş mənbələr tədqiqat işinin mövzusunun müxtəlif aspektlərini əks etdirir və bir-birini tamamlayır. Bu materialların tədqiqata cəlb edilməsi ümumilikdə erməni məsələsinin və eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ortaya çıxan problemlərin daha ətraflı və dərindən işıqlandırılmasına kömək edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi və vəzifələri mövzunun aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr irəli sürülmüşdür:

1. Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzkarlıq siyasətini və pərdə arxası məqamları analiz etmək, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının əsassızlığını faktiki materiallara söykənərək sübuta yetirmək;

2. Qərb-Türk sivilizasiyaları arasındakı münasibətlərin tarixi köklərini araşdırıb təhlil etmək;

3. Vaxtilə geosiyasi rəqabətlərin nəticəsi kimi ərsəyə gətirilən “erməni məsələsi”nin beynəlxalq siyasətdəki yerini müəyyənləşdirmək;

4. Azərbaycanın tarixi torpaqlarını işğal edən, minlərlə günahsız insanın ölümünə səbəb olan Ermənistanın terrorist dövlət olduğunu dəlillərlə sübut etmək, eyni zamanda erməni kilsəsinin də bilavasitə təşəbbüsü ilə terrorist təşkilatlara verdiyi dəstəyi tutarlı faktlar və arqumentlər əsasında açıb ortaya qoymaq;

5. Böyük dövlətlərin ayrı-ayrılıqda hər birinin ermənilər və Ermənistanla qarşılıqlı faydalanma və istifadə münasibətləri çərçivəsində formalaşan əməkdaşlıqlarını faktiki materiallar əsasında açıb ortaya qoymaq;

6. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində ATƏT-in Minsk Qrupunun fəaliyyətini, Qərbin aparıcı dövlətlərinin, eyni zamanda Rusiyanın mövqeyini müəyyənləşdirmək;

7. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dünyanın və regionun aparıcı dövlətlərinin siyasi münasibətləri kontekstində təhlil etmək;

8. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində böyük güclərin ikili standartlar mövqeyindən çıxış etmələrinin səbəbini, mahiyyətini və pərdə arxası məqamlarını araşdırıb təhlil etmək;

9. Münaqişənin bitməməsinin əsas səbəblərini və onun həllinə mane olan amilləri aşkara çıxarmaq;

10. Müharibə variantının vəd etdiyi perspektivləri, dövlətlərin bu varianta münasibətini analitik təhlil etmək;

11. Orta müddətli perspektivdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaxın gələcəyinə dair proqnozlar vermək.

**Tədqiqatın nəzəri-metodoloji bazası.** Dissertasiya yazılarkən hadisələrə obyektiv yanaşılmış, analiz, sintez, ümumiləşdirmə metodlarından istifadə edilməklə birlikdə tənqidi yanaşma, tarixi-müqayisəli və sistemli təhlil üsullarına geniş yer verilmişdir. Araşdırma zamanı hadisələrin səbəb-nəticə əlaqələrinin aşkarlanması, hasil olunan nəticələrin təhlili və ümumiləşdirilməsi kimi tarix elmində ümumən qəbul edilmiş və təsbit olunmuş tədqiqat metodlarından, eyni zamanda ümumi metodologiya olan tarixi, politoloji və məntiqi universal idrak metodlarından istifadə olunmuşdur. Bütün bunlarla birlikdə mənbələr hərtərəfli dərindən təhlil edilmiş, nəzəri fikirlər arxiv materialları ilə əlaqələndirilmiş, tarixi hadisə və proseslərin əsl mahiyyətinin, pərdə arxası məqamların açılmasına cəhd göstərilmiş, konseptual nəticələr əldə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində problemə dair müxtəlif arxiv, ədəbiyyat, mətbuat və internet materialları tarixi, müqayisəli, tənqidi və politoloji baxımdan hərtərəfli təhlil edilərək Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin pərdə arxası məqamları, münaqişənin yaranması və davam etməsi səbəblərinin, eyni zamanda onun həllinə mane olan

amillərin, bu münaqişəyə dair dünyanın və regionun aparıcı güclərinin tutduqları mövqenin, beynəlxalq təşkilatların fəaliyyətinin kompleks şəkildə öyrənilməsinə cəhd edilmişdir. Aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla tədqiq olunan mövzunun elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının əsassızlığı tutarlı faktlar və arqumentlərlə sübuta yetirilmiş, eyni zamanda erməni kilsəsinin fəaliyyəti və Ermənistan dövlətinin yeritdiyi işğalçılıq və terror siyasəti faktiki materiallar əsasında aşkara çıxarılmışdır;

2. "Erməni məsələsi" ilk dəfə olaraq Qərb və Türk sivilizasiyaları arasındakı ziddiyyətlər müstəvisində araşdırılmış, onun beynəlxalq siyasətdə yeri və rolu müəyyənləşdirilmiş, problemin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri tədqiq edilərək ümumi təhlillər aparılmışdır;

3. Qərb-Türk sivilizasiyaları arasındakı münasibətlərin tarixi kökləri araşdırılıb təhlil edilmiş, "erməni məsələsi"nin də məhz geosiyasi rəqabətlərin törəməsi kimi ərsəyə gəldiyi faktiki materiallarla sübuta yetirilmişdir. Qeyd edək ki, Böyük Britaniyanın Milli Arxivlərindən əldə edilmiş sənədlər, eyni zamanda ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar da "erməni məsələsi"nin məhz geosiyasi rəqabətlərin təzahürü kimi ortaya çıxdığını sübut etməkdədir;

4. Böyük dövlətlərin ayrı-ayrılıqda hər birinin ermənilər və Ermənistanla qarşılıqlı faydalanma və istifadə münasibətləri çərçivəsində formalaşan əməkdaşlıqları faktiki materiallar əsasında açılıb ortaya qoyulmuşdur;

5. Dünyanın вə regionun aparıcı güclərinin, o cümlədən beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münasibətlərində və Dağlıq Qarabağ problemində tutduqları mövqe, onların fəaliyyəti və yeritdikləri siyasət hərtərəfli tədqiq edilmişdir;

6. Ermənistanın Qərb dövlətləri tərəfindən dəstəklənməsinin əsas səbəbləri və ikili standartlar siyasətinin pərdə arxası məqamları araşdırılıb təhlil edilmişdir;

7. Regionun əsas aparıcı dövləti və ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi, Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində oynadığı rol və yeritdiyi siyasət, onun gələcəyə hesablanmış məqsədləri təhlil edilərək araşdırılmışdır;

8. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bitməməsinin əsas səbəbləri və onun həllinə mane olan amillər analiz edilmişdir;

9. Orta müddətli perspektivdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaxın gələcəyinə dair analitik təhlillər verilmişdir;

10. Müharibə variantının Azərbaycana vəd etdiyi perspektivlər və dövlətlərin bu varianta münasibəti analitik təhlil edilmişdir;

11. Elmi-tədqiqat işnin yazılması prosesində istifadə olunan mənbələrin müəyyən hissəsi ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir;

12. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektlərinin işıqlandırılması üçün Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlərdən də istifadə olunmuşdur. Həqiqətən də İngiltərə arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriterilər içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir.

13. Problem ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir;

14. Tədqiqat işi ideoloji konsepsiyalardan azad, qərəzsiz, mövcud gerçəkliyə olduğu kimi yanaşma prinsipi əsasında hazırlanmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat işində əldə edilmiş arxiv sənədləri və ədəbiyyat materialları, aparılmış təhlillər və ümumiləşdirmələr problemin geosiyasi maraqların toqquşması kontekstində araşdırılması məsələsinə yeni yanaşma prizmasından müəyyən elmi maraq kəsb edir. Dissertasiyada gətirilən faktlar və materiallardan, onun əsas müddəalarından, çıxarılan nəticələrdən Azərbaycanın tarixinə, onun siyasi tarixinə, eləcə də beynəlxalq münasibətlər tarixinə aid dərsliklərin və monoqrafiyaların, ölkəmizin mövcud aktual problemlərinə dair ümumiləşdirilmiş elmi əsərlərin yazılmasında, eyni zamanda ali məktəblərdə seçmə fənnlərin tədrisində, mühazirə-məşğələ və xüsusi kursların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası** müəllif tərəfindən dissertasiyanın mövzusu üzrə kitab və məqalələr dərc etdirməsi, habelə beynəlxalq konfrans və simpoziumlarda məruzələrlə çıxış etməsi ilə həyata keçirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, 15 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də problemin aktuallığı və elmi əhəmiyyəti, işin öyrənilmə səviyyəsi və mənbəşünaslıq cəhətdən təhlili verilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

**"Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması"** adlanan birinci fəsil 3 yarımfəsildən ibarətdir. **"Ermənilərin mənşəyi məsələsi, bu yöndə ortaya atılan iddialar və tarixi həqiqətlər"** adlanan birinci yarımfəsildə ermənilərin mənşəyi və formalaşması, onların tarixi ilə bağlı türk, rus və qərb alimləri ilə yanaşı, tanınmış erməni tədqiqatçılarının fikir və iddialarına da geniş yer verilmiş, ziddiyyətli məqamlar tarixi həqiqətlər işığında ortaya qoyulmuşdur. Ümumiyyətlə, erməni xalqının qədim tarixi haqqında yekdil bir fikir mövcud deyil. Eyni zamanda onların mənşəyi və tarixlərinin qədimliyi məsələsində ziddiyyətli məqamlar çoxdur ki, bu da daha çox mifologiya ilə bağlıdır. Heç təsadüfi deyildir ki, erməni tarixçilərinin böyük əksəriyyəti "seçilmiş millət" olduqlarını, öz tarixlərini "Nuh Tufanı"na qədər apararaq, Nuh peyğəmbərin nəvəsinin nəvəsi Hay və ya Hayk ilə başlandığını iddia etməkdə, Şərqi Anadolu və Qafqazın Hz. Nuh tərəfindən guya ermənilərin əcdadı olan Haya vəd edildiyini önə sürməkdədirlər. Məhz bu baxımdan erməni ideologiyası "seçilmiş millət və vəd olunmuş torpaqlar" iddiaları üzərində yaranıb möhkəmlənmişdir.

Ümumiyyətlə, ermənilər öz tarixlərini olduğu kimi deyil, görmək istədikləri kimi yazmaqda və bunun təbliğatını aparmaqdadırlar. Tarixlərini daha da qədimlərə apararaq, dünya mədəniyyətini, yazını, astrologiyanı, mis və dəmir mədənçiliyini özlərinin kəşf etdiklərini və dünyada insan həyatının Sevan gölü sahillərindən başlandığını önə sürməkdə[66] və özlərini xristianlığı ilk qəbul edən xalq olaraq görməkdədirlər.[67]

Halbuki erməni tarixçisi M.Abekyan ermənilərin kim olduqlarını və harada təşəkkül tapdıqları barədə yazır: "...erməni xalqının mənşəyi nədir, necə və nə vaxt, haradan və hansı yollarla buralara gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətlərinə

[66]Колыбель человечества территории исторической Армении: htpp:/ www. azg. Am/ RU/ 200020109/120620108717, shtm
[67]Шагинян М. Важное событие истории. "Литературная" газета, 1978, 13 сентября.

kimlər necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur...”.[68]

Erməni tarixindəki bu müəmmaya diqqət verən P.Henzeyə görə, erməni tarixinin araşdırılması asan deyil. Bu tarix uzun, qarışıq, qismən qaranlıq və ümumiyyətlə, mübahisəlidir. Erməni tarixi demək olar ki, tamamilə ermənilər tərəfindən yazılıb. Çünki öz tarixini yazan bir şəxs və ya o millətin ziyalı təbəqəsi onu təbii ki, daha keçmişlərə aparacaq və qədimləşdirəcək, eyni zamanda onun mübahisəli cəhətlərini obyektiv şəkildə olduğu kimi araşdırıb ortaya qoymaqdan yan keçəcəkdir. Ermənilərdə bu vəziyyət xüsusilə görülməkdədir və XX əsrin ortalarından etibarən çox açıq bir şəkildə ortaya çıxmışdır.[69]

Tarixi materiallar əsasında ortaya çıxan məqama görə, erməni alimləri elmi metodologiyanı və həqiqətləri deyil, obyektiv və elmi olmayan fərqli bir tarixçilik yolunu mənimsəmişlər. Tarixdə olmayan “Böyük Ermənistan” dövlətinin varlığını isbat etməyə cəhd göstərən ermənilər Türkiyə və Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları ilə çıxış edirlər. Bütün bunlar bir iddia olaraq dəyərləndirilsə də, onlar Azərbaycanı və Türkiyəni öz problemləri içərisinə çəkməyə nail olublar. Bir vaxtlar Ermənistan dövlətinin qurulacağı məsələsinə də sadəcə bir iddia gözüylə baxılırdı. Amma günümüzdə “Ermənistan” adlanan bir dövlət mövcuddur. Böyük Ermənistan dövlətinin qurulması mümkün olmaya bilər, amma bu ideyanı qlobal oyunun bir parçası olaraq dəyərləndirmək hər halda yanlış ifadə olmaz. Bu səbəblə böyük güclərin də dəstəyini alan ermənilər istər Azərbaycana, istərsə də Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edirlər. Əsl həqiqət budur ki, Azərbaycan və Türkiyəyə qarşı iddiaların, daha doğrusu “Böyük Ermənistan” əfsanəsinin arxasında sırf Ermənistan dayanmır. “Böyük Ermənistan” ideologiyası böyük dövlətlərin də maraqlarına uyğundur.

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixi və səbəbləri”** adlanan ikinci yarımfəsildə münaqişənin genezisi, onun geosiyasi köklərinin yaranmasının sosial-siyasi səbəbləri araşdırılmışdır. Məlum olduğu kimi, problemin geosiyasi aspekti konfliktin köklərinin meydana gəlməsində Rusiyanın tarixi-geosiyasi mövqeyi və bütövlükdə Cənubi Qafqazda milli mənafeyinin həyata keçirilməsi ilə sıx bağlıdır. Araşdırmalar

---

[68]Абекян М. История древнеармянской литературы. Ереван: издательство Академии Наук Армянской ССР, том I, 1948, с. 11.
[69]Henze P. Ermeni şiddetinin kökenleri, uluslararası terörizm. Ankara: Ankara Üniversitesi yayını, 1988, №: 88, s. 173-174.

göstərir ki, Qafqaz siyasəti həm də iqtisadi mənafeləri baxımından rus çarizminin geosiyasi niyyətlərinin mərkəzində olmuşdur.

Qeyd etmək lazımdır ki, çarizmin regionda öz imperiya siyasətini yeritməsini artıran faktorlardan biri məhz ermənilər idi. Heç təsadüfi deyildir ki, strateji baxımdan böyük əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisinin xeyli dərəcədə çoxalması XIX əsrin əvvəllərində, xüsusilə Azərbaycan torpaqlarının parçalanması haqqında imzalanan 1828-ci il tarixli Türkmənçay müqaviləsindən sonra baş vermişdir.

Rusiyanın geosiyasi maraqlarının nəticəsi olaraq bütün XIX əsr boyunca İran və Türkiyədən Şimali Azərbaycana torpaqlarına kütləvi surətdə ermənilər köçürüldü və bölgədə onların sayı ilbəil artmağa başladı. Nəticədə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi Qarabağın dağlıq hissəsində demoqrafik vəziyyətə, regionda baş verən hadisələrə ciddi təsir göstərdi və onların gələcək ərazi iddialarının baş qaldırmasına səbəb oldu. Ermənilərin ərazi iddiaları, ümumilikdə erməni məsələsi günümüzdə olduğu kimi, keçmişdə də böyük dövlətlərin siyasi münasibətləri kontekstində aktuallaşmışdı. Düzdür, 1870-ci illərə qədər dövlətlərarası münasibətlərdə erməni məsələsi yox idi, lakin müstəmləkəçilik siyasəti genişləndikcə, geosiyasi maraqlar və mənafelər artdıqca ermənilər bu yolda dini, milli-siyasi metoda çevrildilər. Beləliklə, "erməni məsələsi" qlobal bir problemə çevrildi, eyni zamanda bu məsələ türk düşmənçiliyi üzərində quruldu. Türklərə qarşı həmin bu psixologiyanın təsiridir ki, ermənilər istər Türkiyədə, istərsə də Azərbaycanda genişmiqyaslı terror aktlarına baş vurmuşlar. 1905-1907 və 1918-1920-ci illərdə böyük güclərin də hərbi-maliyyə dəstəyi ilə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmiş, Bakı, Qarabağ, Gəncə, Naxçıvan, Zəngəzur və s. bölgələrdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmişlər.

1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları öz müstəqilliklərini elan etdikdən dərhal sonra Ermənistanın millətçi dairələrinin təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsində məskunlaşan ermənilər Azərbaycan hakimiyyətini tanımaqdan imtina etdilər. Ərazi bütövlüyünü qoruyub saxlamağı və vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistan tərəfindən Qarabağın dağlıq hissəsini diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alınsa da, Cənubi Qafqazda sovet hakimiyyətinin qurulmasından sonra da bu məsələ gündəmdən düşmədi. Çünki Sovet Rusiyası diplomatiyasının dərinliklərində çarizmin xarici siyasətinə dönüş meyilləri açıq-aşkar hiss edilirdi. Məhz bunun nəticəsi idi ki, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilərə 1923-cü ildə muxtar vilayət statusu verildi. Azərbaycanın tərkibində DQMV-nin yaradılması heç

şübhəsiz, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından və düşmənçiliyindən istifadə edən Sovet Rusiyasının uzaqgörən və məqsədyönlü siyasətinin nəticəsi idi. Hadisələrin tarixi gedişatı göstərdi ki, bu siyasət ermənilərin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin və vasitə imiş.

Sovet dövründə Dağlıq Qarabağ məsələsi bir neçə dəfə qaldırılsa da, ermənilər və onların himayədarları məqsədlərinə nail ola bilmədilər. O dövrdə Azərbaycanda hakimiyyətdə rəhbərlərin qəti mövqeyindən sonra məsələnin arzuolunmaz istiqamət alacağını hiss edən Moskva bu məsələnin üstündən müvəqqəti də olsa keçməli oldu. Sonrakı dövrlərdə Heydər Əliyev kimi güclü və cəsarətli bir şəxsiyyətin hakimiyyətə gəlməsi antiazərbaycan qüvvələrin fəaliyyətinə bir zərbə, ilk növbədə erməni iddialarının reallaşmasına ən böyük maneə oldu.[70] O, milli ruhun canlandırılması istiqamətində güclü, sistemli və əhatəli çalışırdı.

Heydər Əliyevin Dağlıq Qarabağda yeritdiyi cəsarətli siyasət, o cümlədən Azərbaycan naminə bütün fəaliyyəti ermənilər tərəfindən qəzəblə qarşılanırdı. Məqsədə nail olmaqdan ötrü bütün vasitələr məqbul hesab olunurdu. Heydər Əliyevin Sovet İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilməsi, Azərbaycanın yüksək inkişafı, nüfuzunun artması ermənilər tərəfindən özlərinin məğlubiyyəti kimi qiymətləndirilirdi. Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifələrində işlədiyi zamanlarda da Azərbaycanın mənafeyini qətiyyətlə qorumuş və erməni iddialarının reallaşmasına imkan verməmişdi. Lakin Heydər Əliyevin hücum və böhtan kampaniyaları ilə bu vəzifələrdən getməsi Azərbaycan üçün fəlakətlər doğurdu, respublikaya münasibət dəyişdi, azərbaycanlılar sıxışdırılmağa başlandı.[71]

Sovet İttifaqında yenidənqurma adı altında bir sıra dəyişikliklərin baş verməsi şəraitində ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək, yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürdülər. İstər 1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının, istərsə də SSRİ-nin süqutundan sonra Rusiya Federasiyasının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, soyqırımı siyasəti gerçəkləşdirilmiş, nəticədə minlərlə dinc sakin qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və

---

[70]Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, s. 326-327.
[71]Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər), s. 372.

yandırılmışdır. Hal-hazırda Azərbaycan ərazisinin 20%-dən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

**"Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində münaqişənin nizamlanması prosesi və mövcud vəziyyət"** adlanan ikinci yarımfəsildə problemin ümummilli liderin xarici siyasət fəaliyyətində başlıca tutduğu yer, münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi istiqamətində böyük öndərin misilsiz fəaliyyətinin görünən və görünməyən tərəfləri işıqlandırılmışdır. Məlum olduğu kimi, münaqişənin aradan qaldırılması istiqamətində ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə görüşlərində, Minsk Qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə göstərdiyi ardıcıl səylər hər zaman Azərbaycan xalqının və dövlətinin maraqlarını hər şeydən uca tutması Heydər Əliyevin siyasətinin mühüm hissəsini təşkil edirdi.[72]

Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc vasitələrlə həll edilməsi üçün diplomatik gücə malik olmağı ən vacib şərt hesab edirdi. Ümumiyyətlə, ulu öndər keçirilən hər bir rəsmi görüşdə və zirvə toplantılarında Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəyini bəyan etmişdir.[73] Qeyd etmək lazımdır ki, münaqişənin həllinə beynəlxalq imic və digər amillər də təsir edir. Tarixə nəzər salınsa, aydın görünər ki, Azərbaycanın Rusiyaya birləşdirilməsindən üzü bu yana heç kəs Heydər Əliyev qədər müsbət imic qazandırmayıb və onu tanıtmayıb.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, ölkənin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyası günümüzdə onun davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların gedişində daim Azərbaycan xalqının mənafeyini üstün tutmuşdur.[74]

**"Erməni məsələsi"nin beynəlxalq siyasətdə yeri və onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri"** adlanan ikinci fəsil dörd yarımfəsildən ibarətdir. **"Qərb və Türk sivilizasiyaları arasındakı münasibət-**

---

[72]Mirbəşiroğlu E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri, 2009, №1-2, s. 114-115.

[73]İsmayılov F., Həsənov S. Məqsədyönlü diplomatiya Azərbaycanın gələcəyi naminə // Dirçəliş – XXI əsr, 2004, № 76-77, s. 119.

[74]Həsənov R. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İlham Əliyevin fəaliyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, №3, s. 15.

**lərdə "erməni məsələsi"nin yeri və rolu"** adlanan I yarımfəsildə tarixi faktlara və analitik təhlillərə əsaslanaraq "erməni məsələsi"nin geosiyasi rəqabətlər və maraqların toqquşması, antitürk zehniyyət və fəaliyyətlərin təzahürü, digər bir ifadə ilə, Qərb və Türk sivilizasiyaları arasındakı qarşıdurmanın törəməsi kimi ortaya çıxdığı sübuta yetirilməyə çalışılmış, belə bir nəticəyə gəlinmişdir ki, aparıcı dövlətlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ikili standartlar mövqeyindən çıxış etmələrinin və hər fürsətdə Ermənistanı dəstəkləmələrinin səbəbi, kökü keçmişlərə uzanan Qərb-Türk sivilizasiyaları arasındakı münasibətlər, antitürk zehniyyət və düşüncə tərzi ilə bilavasitə əlaqədardır. Aydın olmuşdur ki, Qərb və Türk sivilizasiyaları arasında keçmişdən günümüzə qədər davam edən gərginlik bilavasitə Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərə də öz təsirini göstərmiş, nəticədə Türk sivilizasiyasının daşıyıcılarından biri kimi Azərbaycan bundan ciddi yaralar almışdır.

Ermənistana verilən dəstək bilavasitə keçmişdən miras qalan milli düşmənçilik və antitürk zehniyyətindən qaynaqlanır ki, Qərb keçmişdəki hadisələrin intiqamını "erməni amili" vasitəsilə almağa çalışmaqdadır.

Məlum olduğu kimi, türklərin Qərblə münasibətləri 1600 illik müharibə və münaqişələrlə dolu bir keçmişə sahibdir. Orta Asiyadan gələn şimallı Hun-türk ordusu Qərbi Roma imperiyasının süqutuna zəmin hazırladı. Osmanlı hökmdarı Fateh Sultan Mehmetin dövründə isə türklər 1453-cü ildə Şərqi Roma imperiyasının – Bizansın varlığına son verdilər. Qərbi Roma imperiyasının süqutundan 1699-cu il Karlovitsa müqaviləsinə qədər tam 1300 il türklərin Qərb üzərində qəti üstünlüyü inkaredilməz həqiqətdir. Bundan başqa, avropalıların xristianlıq uğrunda təşkil etdikləri əksər səlib yürüşlərinə də türklər sinə gərdilər və onları ağır məğlubiyyətə uğratdılar. Beləliklə, xaçlıların 200 ilə yaxın davam edən hakimiyyətlərinə son verənlər məhz türklər olmuşlar.[75]

Məhz bu səbəblərdən Orta əsrlər dövründə bütün Avropanın nəzərində "Tanrının Qırmancı" (Scorge of God) kimi qəbul edilən türklər Qərb ictimaiyyətinin şüuraltında insan kimi deyil, vəhşi varlıqlar, hər cür qəddarlığı və amansızlığı törədə biləcək məxluqlar olaraq tanınırdılar.[76] Yaddaşlarda kök salmış bu cür mifik düşüncələr və zehniyyət, eyni zamanda keçmişdəki hadisələr Qərbdə türklərə qarşı həm qorxu, həm də nifrət psixologiyasının yaranmasına

---

[75]Ətraflı məlumat üçün bax: Aydoğan M. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: Kumsaati yayınları, 2003, s. 181-182; Çimen A., Göğebakan G. Tarihi değiştiren savaşlar. İstanbul: Timaş yayınları, 2009, s. 111.

[76]Laçıner S. Ermeni iddiaları ve terör / Ermeni sorunu el kitabı. Ankara: Ankara Üniversitesi basımevi, 2003, s. 103-104.

rəvac vermişdir. Nəticədə türklərə qarşı Qərb dövlətlərinin siyasətində hakim mövqelərdən birini də məhz "erməni məsələsi" təşkil etmişdir ki, bu amil hal-hazırda öz aktuallığını qoruyur.

Ermənistanın Qərb dövlətləri tərəfindən dəstəklənməsinin digər bir səbəbi isə Qərb dünyasının şüuraltında gizlənən "günahlardan arınma və ya təmizlənmə psixologiyası"ndan qaynaqlanır. Çünki yəhudilər İkinci Dünya müharibəsi illərində baş vermiş xolokostun əsas günahını sadəcə Almaniyada deyil, kilsədə görür, Orta əsrlərdə olduğu kimi, İkinci Dünya müharibəsi illərində də yəhudi soyqırımının məhz kilsə tərəfindən verildiyini iddia edirlər.[77]

Yəhudilərə qarşı törədilən xolokostun Qərb-xristian şüuru üzərindəki təsirləri o qədər dərindir ki, onun səbəb olduğu dərin psixoloji gərginlik xristianların heysiyyətinə toxunmuş və bu təsir üstündən illər keçsə də, özlərini günahkar hiss etmələrinə yol açmışdır. Bu baxımdan Qərb dünyası günahlardan arınmaq və özlərinə bəraət qazandırmaq üçün tarixdə ilk soyqırımını törədənlərin xristianlar deyil, ilk dəfə məhz xristian erməniləri soyqırımına məruz qoyan müsəlman türklər olduğunu iddia edirlər. Bu baxımdan Qərb-xristian ictimaiyyətinin nəzərində öz dini və siyasi mənafelərinə uyğun olaraq ermənilərə xüsusi rəğbət yaratmaq məqsədi ilə "xristianlığı rəsmən qəbul edən ilk dövlət və millət Ermənistan və ermənilərdir. Tarixdə ilk dəfə xristian ermənilər müsəlman türklər tərəfindən soyqırımına məruz qalmışlar" şəklində təbliğatlara geniş yer ayırmaqdadırlar.

Yuxarıda sadalanan amillərin təhlilindən belə bir nəticəyə gəlmək mümkündür ki, məsələnin mahiyyətində tarixi düşmənçilik hissləri və antitürk zehniyyət dayandığından, bu dövlətlərlə Ermənistan arasındakı məsafə azalmaqda və birlikdə fəaliyyət göstərə bilməkdədirlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Qərb dövlətlərinin ikili standartlar mövqeyindən çıxış etmələrinin səbəbini də məhz bu amillərdə axtarmaq lazımdır. Düzdür, tarixdən miras qalan düşmənçilik hissləri Azərbaycandan daha çox Türkiyəyə şamil olunur. Lakin ortada qlobal erməni məsələsi olunca, bu amil dolayı olaraq öz növbəsində Azərbaycana da təsir edir. Bir tərəfdən Azərbaycan Türk sivilizasiyasının daşıyıcılarından biridir, digər tərəfdən də müharibə Qərbin maraq-larına cavab verən Ermənistanla aparılır.

Amerikanın məşhur strateqlərindən biri, sivilizoloq alim S.Hantinqtonun "Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması" adlı kitabı nəşr edildikdən sonra müəllifin "ortaya çıxmaqda olan qlobal siyasətin başlıca və ən təhlükəli miqyasının fərqli sivilizasiyaların daşıyıcıları arasındakı müna-

---

[77]Haught J.A. Kutsal dehşet: dinsel cinayetler tarihi. İstanbul: Aykırı yayınları, 1999, s. 109-110.

qişələr olacağı” ilə bağlı düşüncəsindən sonra insanlar son dərəcə təəccüblənmiş və qorxmuşlar.[78] Hantinqtonun fikirləri olduqca fərqli bir şəkildə qəbul olunmaqda və analitiklər tərəfindən həddən artıq tənqid edilməkdədir. “Sivilizasiyaların toqquşması” ifadəsinin insanları qorxutduğu danılmaz bir həqiqətdir. Lakin Hantinqtonun bu iddiası fikrimizcə, o qədər də yanlış deyil. Düzdür, müəllif sivilizasiyaların təsnifatına dair əsas faktor kimi din amilinə xüsusi üstünlük verir. Amma sivilizasiyaların əsasında dayanan faktorlar arasında milli amil ikinci plana atılmamalı, onun yeri xüsusi olaraq qeyd edilməlidir. Bu gün qlobal siyasətdə başlıca yeri sivilizasiyalararası münasibətlər tutur. Digər sivilizasiyalar bir tərəfə, Qərb sivilizasiyası ilə Türk sivilizasiyası arasında qarşıdurmanın cərəyan etdiyi bir reallıqdır.

S.Hantinqton “Sivilizasiyaların toqquşması və dünya nizamının yenidən qurulması” adlı kitabında sivilizasiyalararası münaqişəni 1) lokal və ya mikro səviyyə, 2) qlobal və ya makro səviyyə olmaqla iki fərqli formada izah edərək yazır ki, lokal və ya mikro səviyyədə olan münaqişələr fərqli sivilizasiyalara mənsub olan qonşu dövlətlər və həmçinin bir dövlətin içində fərqli sivilizasiyaların daşıyıcıları arasında baş verir ki, belə münaqişələr xüsusilə müsəlmanlar və qeyri-müsəlmanlar arasında yayğındır. Qlobal və ya makro səviyyədə olan münaqişələr isə fərqli sivilizasiyaların böyük dövlətləri arasında baş verir.[79]

Fərqli sivilizasiyaların böyük dövlətləri arasında baş verən, yəni qlobal və ya makro səviyyəli münaqişələrin öz növbəsində fərqli sivilizasiyaların daşıyıcıları olan qonşu dövlətlər arasında yaranan, yəni lokal və ya mikro səviyyəli münaqişələr üzərində təsiri isə inkaredilməzdir. Bu münaqişələrdəki düyünlər beynəlxalq siyasətin klassik problemlərindəndir. Şübhəsiz ki, bu məsələlər tarix boyunca dövlətlər və millətlər arasında cərəyan etmiş münaqişələrin qaynağıdır. Fərqli sivilizasiyalara mənsub qonşu dövlətlər arasında baş verən münaqişələr eyni zamanda sivilizasiyalar arasındakı qlobal güc balansında yaranan dəyişikliklər səbəbi ilə də ortaya çıxa bilər. Ermənistan-Azərbaycan münaqişəsi də bu qarşıdurmanın potensial qaynaqlarından biri kimi xarakterizə oluna bilər.

“**Erməni kilsəsi, Hai-Tahd doktrinası və bunların antitürk fəaliyyəti**” adlanan II yarımfəsildə siyasi və ictimai müzakirələrin əsas mərkəzi olan erməni kilsəsinin “Böyük Ermənistan” dövlətini yarada bilmək üçün terror təşkilatlarını ətrafına yığaraq müntəzəm bir şəkildə onları dəstəkləməsindən, türklərə qarşı qırğınlara təşviq etməsindən, kilsə və terror kimi ikili sistemin Türkiyə, o cümlədən Azərbaycan üzərindəki oyunlarından bəhs olunur və 4 T planının tərkib

---

[78]Huntington S.P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması. İstanbul: Okuyan Us yayınları, 2005, s. 9.
[79]Huntington S.P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması, s. 306.

hissəsi kimi terror və torpaq iddialarının Azərbaycan üzərindəki ağır təsirlərinə geniş yer verilir. Məlum olduğu kimi, erməni milli ideologiyası "Böyük Ermənistan" ideologiyasını özündə ehtiva edən Hai-Tahd (ermənilərin davası) doktrinasıdır. Həmin doktrinaya görə, erməni milli maraqlarının həyata keçirilməsi üçün terror, cinayət və qətl hadisələri zəruridir və əgər terrordan daha şiddətli bir metod varsa, türklərə qarşı ondan da istifadə edilməlidir.[80]

Bu vəziyyət ermənilər arasındakı nifrətin və terroru qidalandıran ana damarın nə qədər güclü bir məqama çatdığını ortaya qoyur. Qeyd edilməlidir ki, "Hai-Tahd" doktrinasının əsasını "itirilmiş torpaqlar" iddiası təşkil edir. Erməni şüurunda həqiqət və haqq-ədalət mənasını daşıyan itirilmiş torpaqlar iddiası "Böyük Ermənistan" düşüncəsindən və bu düşüncənin coğrafi sərhədlərindən qaynaqlanır ki, bu da Türkiyənin Şərqi Anadolu bölgələri ilə yanaşı, Azərbaycanın Naxçıvan, Dağlıq Qarabağ və Kür çayına qədər olan ərazilərini əhatə edir. Erməni iddialarına görə, Azərbaycan "Böyük Ermənistan"ın ayrılmaz hissəsidir, Şərqi Ermənistan olaraq adlandırılır.[81] Bu iddialar "Böyük Ermənistan" ideologiyasının gerçəkləşməsi üçün qonşu ölkələrin torpaqları üzərində yoxdan var edilən uydurma ərazi iddialarıdır.

Məhz bunun nəticəsidir ki, ermənilər tarixin müəyyən mərhələlərində azərbaycanlılara qarşı soyqırımı siyasəti gerçəkləşdirmiş, Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağı və ətraf rayonları işğal etmiş, Azərbaycan türklərinə qarşı Qaradağlı, Xocalı faciələri kimi qanlı cinayətlər törətmişlər.

"**Ermənistanın Azərbaycana qarşı ərazi iddialarında siyasi və dini amillərin rolu"** adlanan III yarımfəsildə ermənilərin əsas ana hədəfləri göstərilir: tarixi təhrif etmək, dünya ictimaiyyətinin gözündə "dünyanın ilk xristian etnosu və dövləti", "xristianlığın Qafqazdakı varisləri və qalası" kimi obrazlar yaradaraq qonşu xalqlara qarşı inzibati-ərazi, qədim mədəniyyət və dini iddialarını qanuniləşdirmək, Türkiyənin və Azərbaycanın imicini zəiflətmək, hər iki ölkəni informasiya blokadasına salmaq, dünya ictimaiyyətinin gözündə "vəhşi türk", "əzabkeş erməni xalqı" obrazını yaratmaq, Azərbaycan və Türkiyənin dünya dövlətləri ilə münasibətlərinin pisləşməsi üçün hər cür üsula əl atmaq, bütün bunların gerçəkləşməsi üçün din amilindən başlıca vasitə kimi istifadə etmək.

Heç təsadüfi deyildir ki, ermənilər özlərini Nuh peyğəmbərin nəslindən gəldikləri şəklində dünya ictimaiyyətinə yalanlar aşılamaqda, "dünyanın ilk

---

[80]İbrahimli H. Değişen Avrasya'da Kafkasya. Ankara: ASAM yayınları, 2001, s. 44.

[81]Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван: изд-тво "Академия Наук Армянской ССР", 1969, с. 47-48; Улубабян Б.А. Очерки историй Восточного края Армении (V-VII вв.). Ереван: изд-во "Академия Наук Армянской ССР", 1982, с. 40.

xristian dövləti" olması və ilk kilsənin Hz. İsa tərəfindən Ermənistanda qurulması ilə bağlı əsassız iddialar önə sürməkdədirlər.[82] Qeyd etmək lazımdır ki, din amili ermənilərdə əsas strateji vasitələrdən biridir. Bu sayədə xristianlıq siyasi müstəviyə oturdulmaqda və dünyanın bir çox ölkəsində məsələ ilə əlaqədar olaraq genişmiqyaslı təbliğatlar aparılmaqdadır.

Ermənilərin "Böyük Ermənistan"ın alt strukturunu təşkil edəcəyini düşündükləri "Böyük Erməni Tarixi"ni yaratmaq üçün göstərdikləri cəhdlər bir çox tarixi hadisələrin saxtalaşdırılmasına yol açmışdır. Bu cəhdlər öz növbəsində erməni tarixini əfsanələrlə sıx surətdə birləşdirmişdir. Onlar özlərinin xristianlaşmalarının tarixini daha qədimlərə apararaq, öz seçilmişliklərini və üstünlüklərini sübut etməyə çalışmaqda və bu sayədə ortaya çıxan dindaşlıq cəhdlərini siyasi müstəviyə oturtmaqdadırlar. Yer üzünün ilk xristian etnosu kimi gülünc iddialarla dünya ictimaiyyətinin beynini qarışdıran ermənilər Azərbaycanın bir çox tarixi ərazilərindəki, xüsusilə Qarabağ və Naxçıvandakı abidələri tarixi erməni abidələri şəklində tanıtdırmaqda və bu vəchlə həqiqətləri təhrif edərək, bunları qonşu ölkələr üzərindəki ekspansionist əməllərinə alət etməkdədirlər. Bu strategiyanın dünya miqyasındakı təsirləri təxmin edilə biləcəyindən daha böyükdür. Məsələnin mahiyyətində dini təəssübkeşlik dayandığına görə, bəzi xristian dövlətlərlə Ermənistan arasındakı məsafə azalmaqdadır. Bu isə Azərbaycan, xüsusilə türklük üzərindəki beynəlxalq təzyiqləri artırmaqdadır.

**"Erməni terrorizmi beynəlxalq terrorizm şəbəkəsinin tərkib hissəsi kimi"** adlanan dördüncü yarımfəsildə erməni terrorizminin qloballaşan dünyanın bir hissəsi olmaqla birlikdə, region dövlətləri üçün təhlükəli bir qüvvəyə çevrildiyi göstərilir.

Erməni terrorizminin təzahürünün əsas qayəsi məhz erməni tarixçilərinin və ideoloqlarının faktları saxtalaşdırmaq yolu ilə heç vaxt olmayan "Böyük Ermənistan dövləti" adlı utopik ideyaları olmuşdur. Günümüzdə ermənilər haqsızlığa məruz qaldıqlarını, ancaq heç kimin onları başa düşmədiyini fikirləşməkdədirlər. Belə bir vəziyyətdə "türklərə həddini bildirmək" prinsipi onların şüuraltında formalaşmışdır ki, bu da radikal erməni təşkilatlarına görə yalnız və yalnız şiddət, yəni terror yoluyla gerçəkləşə və türklərdən intiqam alına bilər. Özlərini "xristianlığın ilk şəhid milləti" olaraq dünyaya, daha doğrusu bütün xristian aləminə tanıdan erməni lobbisi 11 sentyabr 2001-ci il hadisəsini böyük

---

[82]ətraflı məlumat üçün bax: Uras E. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, s. 51-52; Küçük A. Ermeni kilisesi ve türkler. Ankara: Ocak yayınları, 1997, s. 36-37; İlter E. Ermeni kilisesi ve terör. Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma və Uygulama Merkezi yayınları, 1996, s. 18.

fürsət olaraq dəyərləndirərək, bu hadisənin törədildiyi tarixdən etibarən siyasi kampaniyalarını dini amillərlə bəzəməyə çalışdılar. Çatdırmaq istədikləri şüar bu oldu ki, ermәniləri "şəhid" edən millət müsəlman türklərdir. Din amilini başlıca metod olaraq ortaya atan ermənilər xristian-müsəlman gərginliyindən istər Türkiyə ilə bağlı, istərsə də Azərbaycanla əlaqəli problemlərində istifadə etməyə cəhd göstərirlər. Eyni zamanda bu amillə xristian dünyasının nəzərində "müsəlman Azərbaycan" və "müsəlman Türkiyə" xofu yaratmaq istədikləri də inkaredilməz bir həqiqətdir.

Məlum olduğu kimi, günümüzdə terrorizm beynəlxalq təhlükəsizlik baxımından təhdid olaraq mənimsənmişdir. ABŞ da dünya dövlətlərini "beynəlxalq terrorizmə qarşı birgə mübarizə" adı altında səfərbərliyə səsləmişdir. 29 sentyabr 2001-ci il tarixində BMT Təhlükəsizlik Şurası beynəlxalq terrorizmə qarşı mübarizə ilə əlaqədar olaraq 1373 saylı qərar qəbul etmiş və alınan bu qərarda bütün dövlətlərdən hər hansı terrorist qrupları maliyyələşdirən dövlətə mane olmaları tələb edilmişdir.[83] Qeyd edilməlidir ki, terrorizmə dəstək verən dövlətlər ABŞ tərəfindən "şər ölkələr" şəklində adlandırılmaqda və onlara qarşı amansızcasına mübarizə aparılacağı vurğulanmışdır. "Buş doktrinası" olaraq da adlanan və potensial təhdidləri aktiv vəziyyətə gəlmədən məhv etməyi hədəfləyən bu konsepsiya ABŞ-ın milli təhlükəsizlik strateji sənədlərinə də daxil edilmişdir.[84] Halbuki Azərbaycana qarşı həyata keçirilən bir çox terror fəaliyyətlərinin arxasında Ermənistan Respublikası dayanır.

Digər bir tərəfdən, erməni terror təşkilatları ilə dünyanın bir çox terror təşkilatları arasında sıx əlaqələr mövcuddur. Heç təsadüfi deyildir ki, PKK-çılar içərisində çox sayda erməni vardır və onların əksəriyyəti də rəhbər kadrlardır. PKK-nın erməni mənşəli liderlərinin bir çoxu tanınmamaq üçün müsəlman və türk adlarından da istifadə edirlər.[85]

Bir məsələni də qeyd etmək lazımdır ki, günümüzdə beynəlxalq terrorçu birliyi tədricən müstəqil gücə çevrilmişdir. O, özü dövləti dəstəkləmək və ona təzyiq göstərmək qabiliyyətinə malikdir. Onun özünün ərazisi yoxdur. Ona görə də hazırkı dövrdə beynəlxalq terrorizmin əsas marağı ərazi münaqişələrinə cəmləşdirilmiş, bu münaqişələrin gedişində xeyli ərazini öz nəzarətinə götürmüş və orada cinayətkar iqtisadi fəaliyyətin tam tsiklini formalaşdırmışdır. Məsələn, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarında yaradılan

---

[83]Kaya İ. 11 Eylül saldırıları ve sonrası: uluslararası hukukta askeri müdahale // Stratejik Analiz, 2001, cilt: 2, sayı: 19, s. 105.
[84]"The National Strategy of the United States of America", september 2002. http:// www. whitehouse. gov/ nsc/nss. html.
[85]Hacıyev S. Müasir Türkiyədə terror. Bakı: Adiloğlu, 2005, s. 229.

qondarma “Dağlıq Qarabağ Respublikası” separatçı rejiminin ərazisi çoxlu terrorçu təşkilatların “vətəninə” çevrilmişdir. Orada cinayətkar fəaliyyəti həyata keçirmək üçün narkobiznes, silah alveri və s. sahələrdə hər cür şərait yaradılmışdır. Bütün bunlar həqiqət olsa da, terrora münasibətdə “ikili standartlar” mövcuddur. Ötən illərin təcrübəsi belə bir faktı təsdiq edir ki, çox vaxt “lobbiçilik”, “diaspor” və s. kimi subyektiv amillərin təsiri altında terrorçu və terrorçu təşkilat “öz həqiqi adı ilə” çağırılmır. Bu vəziyyət indi də davam edir. Məhz həmin bu “məntiq”ə görə, erməni cinayətləri terror kateqoriyasına daxil edilməmişdir.

Artıq 30 ilə yaxın bir müddətdir ki, Azərbaycan Ermənistanın dövlət terrorizmi siyasətinin hədəfinə çevrilmişdir. Beynəlxalq vasitəçilərin də həllini tapa bilmədikləri və ya tapmaq istəmədikləri Dağlıq Qarabağ problemi mahiyyət etibarilə Ermənistanın dövlət terrorizmi siyasəti və Qarabağ ermənilərindən ibarət terror qruplarının separatçı fəaliyyəti nəticəsində yaranmışdır.[86] Bu prosesdə problemə “ikili standartlar” mövqeyindən yanaşılmamalıdır. Məhz ikili standartların tətbiqi səhih faktların təqdim olunmasına və Azərbaycan tərəfindən BMT-yə dəfələrlə müraciət edilməsinə baxmayaraq, dünyanın aparıcı dövlətlərinin və bəzi təşkilatların Dağlıq Qarabağ ətrafındakı hadisələrə hüquqi qiymət verməyə və həmin hadisələrdə Ermənistan Respublikasının hərəkətlərini təcavüzkar akt şəklində təsnifləşdirməyə və bu hərəkətləri dövlət terrorizmi siyasəti kimi tanımağa imkan vermir. Bu gün ikili standartlar siyasəti Azərbaycana Ermənistanla əməkdaşlığa başlamadığını təklif edən digər beynəlxalq təşkilatlar (Avropa İttifaqı, Avropa Şurası, ATƏT) səviyyəsində də davam edir. Bununla birlikdə, bütün dünya birliyi başa düşməlidir ki, beynəlxalq terrorizmə qarşı mübarizə birgə və ən sərt şəkildə aparılmalıdır. Aydındır ki, beynəlxalq terrorizmə qarşı mübarizə ardıcıl və kompleks olmalıdır. Bu mübarizədə ikili standartların tətbiqi gələcək sivilizasiya üçün məhvedici ola bilər. Bu mübarizəni “prioritet” və “ikinci dərəcəli istiqamətlər”ə bölmək olmaz, eləcə də bu mübarizə aparıcı dövlətlərin geosiyasi və digər maraqlarından asılı olmamalıdır.

**“Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi böyük və regional güclərin geosiyasi maraqları kontekstində”** adlanan üçüncü fəsil altı paraqrafdan ibarətdir. Bu yarımfəsillərdə ayrı-ayrılıqda ABŞ-ın, Avropanın aparıcı dövlətlərinin – Fransanın, İngiltərənin, Almaniyanın, eyni zamanda regionda əsas söz sahibi olan Rusiyanın, bölgənin digər aparıcı aktorları olan İran və Türkiyənin, digər tərəfdən müəyyən səbəblər də əsas götürülməklə İsrailin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tut-

[86]Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı: Bakı Universiteti, 2003, s. 89.

duqları mövqe faktiki materiallar əsasında araşdırılmış və ciddi şəkildə təhlil edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə peşəkarcasına məşğul olanları çıxsaq, əksəriyyətin bu münaqişənin mahiyyəti barədə məlumatları məhduddur, daha doğrusu problemə baxışları fərqlidir. Ümumi baxış budur ki, münaqişə yalnız Dağlıq Qarabağ üstündədir, yəni Ermənistan Respublikası və Azərbaycan bu bölgə üzərində nəzarət yaratmaq istəyirlər.[87] Beləliklə, münaqişə haqqında müxtəlif təsəvvürlər yaranmışdır. Halbuki Azərbaycan beynəlxalq hüquqa appelyasiya edərək, ərazilərin toxunulmazlığı prinsiplərinin pozulmasına yol vermək istəmir, eyni zamanda münaqişəni başqa dövlətin ərazisinin ilhaq edilməsi məqsədini güdən təcavüz kimi qiymətləndirir. Azərbaycanın daxilində də məsələ ilə əlaqədar fərqli fikirlər mövcuddur. Bəzi insanların düşüncəsinə görə, əgər Azərbaycan dünyanın aparıcı dövlətləri ilə "düzgün siyasət" yeritsəydi, bu dövlətlər və beynəlxalq qurumlar Ermənistanı yox, Azərbaycanı dəstəkləyərdi. Bəziləri də söz sahibi dövlətlərin hər şeyə – yeraltı və yerüstü sərvətlərə malik olan Azərbaycana deyil, heç bir şeyi olmayan Ermənistana "humanist" yanaşmalarına təəccüb hissi ilə baxırlar. Demokratiyanı əldə silah tutaraq, bütün dünyaya yaymağa çalışan Qərbin aparıcı dövlətlərinin münaqişə ilə əlaqədar ikili standartlar mövqeyindən çıxış etmələri, ATƏT-in Minsk Qrupunun yeritdiyi fəaliyyətlərin səmərəsiz nəticə verməsi, Ermənistanın humanitar və hərbi yardımlara "layiq" görülməsi, işğalçının təcavüzkar kimi tanınmaması, beynəlxalq təşkilatların münaqişəyə lazımi qiymət verməmələri və digər məsələlərin cavabı müəmmalı görünsə də, mahiyyətini açmaq mümkündür. Bu fəsildə beynəlxalq və regional siyasətdə rol oynayan və "erməni məsələsi"nə xüsusi maraq göstərən böyük güclərin həmin məsələyə dair mövqeyi və ikili standartlar siyasətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə təsiri araşdırılmış, daha konkret bir ifadə ilə desək, münaqişənin qlobal və regional güclərin geosiyasi maraqlarındakı yeri faktiki materiallar əsasında təhlil edilmişdir.

Ayrı-ayrılıqda təhlil etsək, görərik ki, nəinki Azərbaycan, ümumiyyətlə, bütün Cənubi Qafqaz indiki mərhələdə ABŞ-ın – baxmayaraq ki, ATƏT-in həmsədrlərindən biridir – həyati maraqları daxilində deyil. Bunun ən bariz dəlili və nümunəsi Rusiyanın 2008-ci ilin avqust ayında Gürcüstana hücumu zamanı ABŞ-ın reaksiyasında görülə bilər. Əvvəla, Rusiya Gürcüstana hücum etməklə və bu ölkənin ərazi bütövlüyünü pozmaqla həm 1990-cı illərdə çökən

---

[87]Bu barədə bax: Brzezinski Z. Büyük satranç tahtası: Amerika'nın önceliği ve bunun jeostratejik gerekleri, s. 117; Huntington S.P. Medeniyetler çatışması ve dünya düzeninin yeniden kurulması, s. 383.

rus ordusunun öz əvvəlki gücündə olmadığı düşüncəsini hafizələrdən sildi, ABŞ-ın dostluğunun və vədlərinin heç bir dəyəri olmadığını isbatladı, ABŞ-a meyil edən bütün region dövlətlərinə açıq xəbərdarlıq etdi, həm də ABŞ-ın həyati maraqlarının Cənubi Qafqazda deyil, əsas olaraq Yaxın Şərqdə olduğunu açıb ortaya qoydu. Bu müdaxilə qarşısında ABŞ-ın sadəcə diplomatik notalarla kifayətlənmək məcburiyyətində qalması onun Cənubi Qafqaza nə dərəcədə maraq göstərməsinin bariz təzahürüdür.[88]

Ümumiyyətlə, başda ABŞ olmaqla, Qərb dövlətləri, o cümlədən Avropanın aparıcı dövlətləri, xüsusilə Fransa, İngiltərə, Almaniya və s. münaqişənin ATƏT-in Minsk Qrupu çərçivəsində həllini tələb etməkdədirlər. Yalnız bir məsələ aydındır ki, dünya dövlətləri regionda əsl təcavüzkarı tanımadıqca sabitliyin uzun sürməsinə təminat vermək çətin olacaqdır. Azərbaycan tərəfi bütün rəsmi və qeyri-rəsmi səviyyədə keçirilən görüşlərdə konfliktin sülh yolu ilə həllinin yalnız beynəlxalq hüquq normaları əsasında mümkünlüyünü dəfələrlə bəyan etmişdir. Doğrudur, problemin həllində maraqlı olan dövlətlər və beynəlxalq təşkilatlar münaqişə tərəflərinin qarşılıqlı güzəştə getmələrini məqsədəuyğun hesab edərək, bunu da xüsusi olaraq vurğulayırlar ki, konfliktin həllində qalib tərəf ola bilməz və əgər problemin tənzimlənməsinə beynəlxalq hüquq normaları şamil olunmursa, onda tərəflər dil tapıb barışmalıdırlar. "Dil tapıb barışmağın" əsas məğzi də Azərbaycanın işğal olunan torpaqlarını güzəştə getməsindən, XXI əsrin sivilizasiyalı dövləti ola bilməsi üçün Ermənistanla qarşılıqlı əməkdaşlıq qura bilməsindən ibarətdir. Şübhəsiz ki, Ermənistanın bu torpaqlardan xoşluqla çıxacağı məntiqə uyğun deyildir. Azərbaycan tərəfinin güzəştə getməsi "dil tapıb barışmaq" baxımından Ermənistanın işinə olduqca yarayar. Təbii ki, bu, real çıxış yolu deyil və əslində problemin həlli prosesinin yeni çətinliklərlə üzləşəcəyindən xəbər verir. Nə qədər ki, işğal edilmiş ərazilər azad edilməyib, Azərbaycanla Ermənistan arasında hər hansı əməkdaşlıqdan söhbət gedə bilməz və qətiyyən mümkün deyil. Müharibə şəraitində əməkdaşlıq etmək tamamilə cəfəngiyatdır. Əməkdaşlıq etmək üçün Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bu baxımdan Avropa dövlətlərinin münaqişənin həlli ilə bağlı göstərdikləri təşəbbüslər nəticəsiz qalmaqdadır. Əslində bu təşəbbüslərin nəticəsiz qalmasının da əsl səbəbi onların münaqişənin həlli ilə bağlı yeritdikləri siyasətin qeyri-müəyyən olmasından qaynaqlanır. Qeyd etmək lazımdır ki, Avropa dövlətləri münaqişəyə sırf lokal Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti müstəvisində deyil, daha çox ümumi

---

[88]Bu barədə ətraflı bax: Amerikalı analitik Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bədbin proqnoz verib. http://az.apa.az/news.php?id=228962; Friedman G. Gelecek 10 yıl. İstanbul: Pegasus yayınları, 2011, s. 149.

türkçülük nöqteyi-nəzərindən yanaşırlar. Yəni münaqişə qlobal erməni məsələsi çərçivəsində diqqəti cəlb edir. Bu dəyərləndirmələrlə tanışlıq onu deməyə əsas verir ki, Avropa dövlətlərinin parlamentləri Azərbaycanın ərazi bütövlüyünü tanısalar da, Ermənistanın nəinki işğalçı dövlət olduğunu qəbul və işğal etdiyi ərazilərdən çəkilməsini tələb etmirlər, əksinə konflikt tərəflərinin güzəştə getmələrini məqsədəuyğun hesab edirlər. Şübhəsiz ki, Avropa dövlətlərinin Ermənistanın maraqları naminə şərtlər qoyması və qərarlar qəbul etməsinin arxasında müəyyən siyasi səbəblər və antitürk zehniyyət gizlənir.

Təcavüzkarın tanınması Azərbaycan diplomatiyasının həll etməli olduğu ən başlıca məsələdir. Düzdür, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Dağlıq Qarabağ münaqişəsilə bağlı 4 qətnamə (822, 853, 874 və 884 saylı qətnamələr) qəbul edib. Bu qətnamələr Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini təsdiqləyir. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilandan dərhal çıxarılması tələb edilir.[89]

1994-cü ildə ATƏT-in tərkibində yaradılmış Minsk Qrupunun vəzifəsi də Dağlıq Qarabağ münaqişəsinin həllində məhkəmə rolunu oynamaqdır. Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk Qrupu 1995-ci ildən etibarən münaqişənin həllində iştirak etsə də, işğala son qoyulması üçün hələ də ciddi addımlar ata bilməyib. Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk Qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.

Bundan başqa, 2008-ci il martın 14-də də BMT Baş Assambleyasında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistan silahlı qüvvələrinin işğal altındakı ərazilərdən çıxarılmasını tələb edən qətnamə qəbul edilib. Sənəddə azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ da təsdiqlənib. Qarşıya belə bir sual çıxır: Təşkilat qəbul etdiyi qətnamələrin icra mexanizminə malik olmadığı üçün bu qətnamənin icrasını ona üzv olan dövlətlər təmin edirlər mi? Bu sual öz cavabını 14 mart 2008-ci ildə BMT Baş Assambleyasının 62-ci sessiyası çərçivəsində keçirilən növbəti iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul edilməsiylə əlaqədar ATƏT-in Minsk Qrupuna həmsədr olan ölkələrin mövqeyində tapmışdır. Qətnamənin ikinci bəndində qeyd olunur: "Baş Assambleya tələb edir: bütün erməni qüvvələri dərhal, qeyd-şərtsiz və tam tərkibdə işğal olunmuş Azərbaycan ərazilərini tərk etsin".[90]

---

[89]http:avsam. org/dosyalar/822, 853, 874, 884 .pdf
[90]http://www.azerbaijan.az/News/newse.html?lang=en&did=2008-03-15

Bu bənd yerinə yetirilmiş olsa, münaqişə demək olar ki, həll edilmiş olacaq. Ancaq BMT Baş Assambleyasında adı çəkilən məsələ səsə qoyularkən bu qətnamənin qəbul edilməsinin əleyhinə səs verən 7 dövlətdən 3-ü məhz ATƏT-in Minsk Qrupuna həmsədr olan ölkələr, yəni ABŞ, Rusiya və Fransa oldular. Həmsədrlərin iddialarına görə, guya qətnamədə səslənən fikirlər birtərəflidir və hər iki tərəfin mövqeyini əks etdirmir. Eyni zamanda iki ölkə arasında aparılan danışıqlarda tərəflər razılaşdırılmış siyasət yeritməlidirlər. Vasitəçilərin sözlərindən belə çıxır ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi danışıqların müzakirə obyekti olub və onların mənsub olduqları ölkələr bu məsələni Ermənistanla "razılaşdırılmadan" BMT Baş Assambleyasında müzakirəyə çıxara bilməzmiş. Həmsədrlərin verdiyi bəyanatda belə bir ifadə də öz əksini tapır ki, guya qətnamə balanslaşdırılmış ərazi bütövlüyü təkliflərini nəzərə almır.[91] Halbuki beynəlxalq hüquqda balanslaşdırılmış ərazi bütövlüyü termini yoxdur. Bütün bunlar onu göstərir ki, vasitəçilik missiyasını həyata keçirən dövlətlər BMT BA-da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və təcavüzkarı öz adı ilə çağıran qətnamənin qəbulunun əleyhinə səs verməklə təcavüzkar və işğalçı Ermənistanı açıq şəkildə dəstəkləməkdədirlər. Bu isə əslində vasitəçilərin təxminən 30 ilə yaxın müddət ərzində pərdə arxasında oynadıqları oyunların ifşası deməkdir.

Qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi aspekti konfliktin köklərinin meydana gəlməsində Rusiyanın tarixi-geosiyasi mövqeyi və bütövlükdə Cənubi Qafqazda milli mənafeyinin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. Hal-hazırda münaqişəni Rusiyasız təsəvvür etmək mümkün deyil. Artıq ictimaiyyətdə formalaşan rəy budur ki, münaqişənin həllinin yalnız bir açarı vardır ki, bu da Rusiyadadır. Çünki Rusiya özünün geosiyasi və geoiqtisadi maraqlarına uyğun olaraq Cənubi Qafqaza kənar qüvvələrin yaxınlaşmasına qarşı çıxmaqdadır. O, təzyiq aləti kimi ənənəvi "erməni kartı"ndan istifadə etməkdə və Ermənistanı hər vasitə ilə silahlandırmaqdadır. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Rusiyanın Ermənistanı silahlandırması tərəflər arasındakı silahlanma yarışını daha da gücləndirib. Bu yarışda münaqişə tərəfləri istər-istəməz silah ixracatı ilə məşğul olan dövlətlərin "müştəri"sinə çevrilir ki, bu da başda Rusiya olmaqla, silah ticarətində önəmli rol oynayan güclər üçün olduqca əlverişli və önəmli bir faktordur. Belə bir vəziyyətdə Cənubi Qafqazda stabilliyin bərpa olunması və Ermənistan ilə Azərbaycan arasında cərəyan edən problemin öz real həllinə qovuşması Rusiya baxımından arzuedilən bir hal deyil.

---

[91]Mustafa Ə. Vasitəçilərdən növbəti riyakarlıq. "Zaman" qəz., Bakı, 2008, 19 mart.

Azərbaycanın da digər dövlətlərlə yanaşı, Rusiyadan da silah satın almasını nəzərə alsaq, rəsmi Moskvanın bu addımının arxasında onun gələcəyə hesablanmış məqsədləri yatır: münaqişə tərəflərini özündən asılı vəziyyətdə saxlamaq və bununla da regionda təsir rıçaqlarını qorumaq.

Üçüncü fəsildə diqqəti çəkən digər ən önəmli məsələlərdən biri də münaqişədə İranın, Türkiyənin və İsrailin tutduğu mövqe və yanaşmadır ki, detaylı şəkildə bu dövlətlərin hər birinin münasibəti faktiki materiallar əsasında təhlil edilmişdir.

**"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaxın gələcəyi: sülh, müharibə, yoxsa atəşkəs?"** adlanan dördüncü fəsil 2 yarımfəsildən ibarətdir. Bu fəsildə ümumilikdə konfliktin yaxın gələcəyinə dair proqnozlar verilmişdir. Birinci yarımfəsildə münaqişənin həllində "sülh" variantı və tərəflərin mövqeyi analiz edilmiş, aydın olmuşdur ki, Ermənistan ilə Azərbaycan arasında "sülh" variantının yeri görünmür.

Azərbaycanlı politoloqlardan S.Həmidov problemi "labirint" olaraq dəyərləndirmiş,[92] xarici məsələlər üzrə ekspert Z.Şiriyev isə "Fələstin sindromu"na bənzətmişdir.[93]

Həqiqətən də labirintin girişi olsa da, çıxışı çətin və yolları dolaşıq, qarmaqarışıqdır. Labirintə daxil olub müəyyən məsafə qət etdikdən sonra düzgün yolu tapa bilmədikdə giriş və çıxışın statusu bərabərləşir. Beləliklə, çıxış yolu tapmaq ümidi ilə yorulanadək ortada dolaşmaqdan başqa bir yol qalmır. Bu mənada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin "labirint"ə bənzədilməsində doğruluq payı yüksəkdir. Sülh danışıqlarının inkişaf mərhələlərinə nəzər salsaq görərik ki, problemin hər dəfə nizamlanması istiqamətində durğunluq yarananda və Azərbaycan alternativ həll yolları axtarmağa başladığı zaman qarşı tərəf və ya ATƏT-in Minsk Qrupunun həmsədrləri yeni təkliflər irəli sürərək Azərbaycanın danışıqlara olan inamını bərpa etməyə çalışırlar. Danışıqlar həlledici mərhələyə çatdıqda, Ermənistan tərəfinin geri çəkilməsi nəticəsində bütün proses yenidən durğunluq vəziyyətinə qayıdır. Atəşkəs haqqında razılığın əldə edildiyi 1994-cü ildən günümüzə qədər etibarən eyni durğunluq davam edir. Problemin uzun müddət bu ssenari çərçivəsində davam etməsi ehtimalı olduqca yüksəkdir. Münaqişənin həlli yolunda ATƏT-in Minsk Qrupu nəzdində heç bir irəliləyişin olmaması və hər dəfə yenidən durğunluq vəziyyətinə qayıtması,

---

[92]Həmidov S. Dağlıq Qarabağ münaqişəsi 2020-ci ildə: sülh, yoxsa müharibə? // Dirçəliş-XXI əsr, 2011, №153-154, s. 156.
[93]Şiriyev Z. Azerbaycan'ın Karabağ politikası ve stratejik vizyonu // Orta Asya ve Kafkasya Araştırmaları Dergisi, 2011, cilt:6, sayı:12, s. 112.

dolayısı ilə "Fələstin sindromu" və ya "Kəşmir sindromu"na çevrilməsi problemin daha uzun illər davam etməsi və ya "ani müharibə"nin baş verməsi istiqamətində şübhələr oyandırmaqdadır. Heç təsadüfi deyildir ki, Azərbaycan hərbi güc tətbiq etməkdən belə çəkinməyəcəyini hər dəfə vurğulayır. Xüsusilə son dövrlərdə Azərbaycanın hərbi doktrinasının müdafiə xərclərinin ordunun taktiki və strateji tutumunun istifadəsinə yönləndirilməsi və Dağlıq Qarabağ probleminin həllinin milli prioritet məsələ kimi müəyyənləşdirilməsi beynəlxalq miqyasda əks-səda doğurmuşdur. Azərbaycanın hərbi büdcəsini artırması Ermənistan tərəfindən siyasi manevr olaraq qəbul edilsə də, 8 iyun 2010-cu ildə Hərbi Doktrinanın qəbulu Azərbaycanın bu məsələdə son dərəcə ciddi olduğunu ortaya qoymuşdur.[94] Doktrinada beynəlxalq hüququn Azərbaycana tanıdığı haqlar çərçivəsində hərbi güc tətbiq edərək işğal altında olan torpaqların qaytarılması təsbit edilmiş və bu məsələ dəfələrlə təkrarlanmışdır.

İkinci yarımfəsildə isə "müharibə" variantı və Azərbaycanın qarşılaşa biləcəyi ehtimali təhlükələr təhlil edilmişdir. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmək məqsədilə hərbi əməliyyatlara başlayacağı təqdirdə Rusiyanın və Qərb dövlətlərinin kəskin etirazları qarşısında ehtimali müharibə reallaşarsa, bunun Azərbaycan baxımından nəticələri necə ola bilər? Bu variantla bağlı müxtəlif ehtimallar mövcuddur:

*Azərbaycan öz qanuni hüquqlarından istifadə edərək işğal altındakı torpaqlarını geri qaytarmağa təşəbbüs göstərərsə, həm ikili müqavilələr çərçivəsində, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi Rusiyanın hərbi müdaxiləsi ilə üzləşə bilər;

*Rusiya bilavasitə hərbi müdaxilə etməsə belə, ən azından vasitəçilik missiyasını öhdəsinə götürərək, yeni bir status-kvo yaratmağa çalışa bilər;

*Ehtimali bir müharibə Azərbaycanın beynəlxalq arenadakı sülhsevər imicinə və dünya enerji bazarlarındakı mövqeyinə ciddi təsir göstərə bilər;

*Hərbi əməliyyatların başlayacağı təqdirdə Azərbaycanın beynəlxalq təşkilatlarda üzvlüyün dondurulması və hətta çıxarılması mümkündür;

*Azərbaycan beynəlxalq aləmdə təklənər, iqtisadi və siyasi sanksiyalara məruz qala bilər və s.

Beləliklə, münaqişənin hüquqi və siyasi müstəvidə həlli məhdudlaşdığına görə, yeganə yol qalır: **Strateji məqamı gözləmək.** Əlbəttə, Ermənistan qarşısında Azərbaycanın davamlı olaraq artan hərbi üstünlüyü göz

---

[94]Azərbaycan Respublikasının Hərbi Doktrinası, Azərbaycan Respublikasının Milli Məclisi, 08 iyun 2010-cu il. http://meclis.gov.az/?/az/law/183#comment

ardı edilməməlidir. Lakin Azərbaycan işğal olunmuş ərazilərini geri qaytarması üçün uzun illər müddətində də olsa, əlverişli strateji məqamı gözləmək məcburiyyətindədir. Bəs, bu əlverişli strateji məqam nə zaman yarana bilər? Bu sualın real cavabını "Zaman"ın ixtiyarına buraxmaqla birlikdə, bir tədqiqatçı olaraq öz fikir və mülahizələrimizi analitik təhlillər əsasında aşağıdakı kimi sistemləşdirə bilərik:

*İlk növbədə Azərbaycan uzunmüddətli müharibəyə tam hazır, uzunmüddətli iqtisadi və siyasi sanksiyalara davam gətirə biləcək gücdə olmalıdır. Lakin bu variant nə dərəcə realdır? Çünki burada söhbət sırf Ermənistanla müharibədən getmir, diqqət çəkilən cəhət kənar orbitlərin müdaxiləsidir. Əgər bu münaqişə həqiqətən də "Ermənistan-Azərbaycan münaqişəsi" olsaydı, Azərbaycan tərəfi onu sülh və ya hərbi yolla özü həll edə bilərdi;

*Uyğun strateji məqam Rusiyanın regional güc mövqeyinin tamamilə zəifləməsi və ölkə daxilində transmilli qüvvələrin güclənməsi ilə yarana bilər. Son illərə qədər rus ordusunun zəifliyi barəsində çox şeylər deyilməkdə və yazılmaqdaydı. Sovetlər İttifaqının süqutundan sonra deyilənlər şübhəsiz ki, həqiqət idi. Lakin önümüzdə yeni gerçəklər var. "Rus geosiyasi problemi"nin yenidən ortaya çıxdığı və rus ordusunun regionda hərbi gücə baş vurmaq istəyən istənilən orduya meydan oxuyan qüvvə olduğu inkaredilməz bir həqiqətdir.

*Əlverişli strateji məqam Türk Respublikaları arasında inteqrasiyanın dərinləşməsi ilə mümkün ola bilər. Türk Respublikalarının, xüsusilə Orta Asiya dövlətlərinin regional bütünlüyünü və inteqrasiyasını dəstəkləyən tarixi, mədəni, strateji, iqtisadi və siyasi baxımdan bir çox amillər mövcuddur. Lakin bu da bir həqiqətdir ki, müstəqilliklərinin elan edilməsindən 30 ilə yaxın bir müddət keçsə də, region dövlətləri arasında inteqrasiya istiqamətində göstərilən cəhdlərin heç birisi uğurlu olmamışdır. Türk Respublikaları arasındakı həmrəylik cəhdlərində bir qopuqluq müşahidə olunur. Türk dövlətləri Türk Dünyasının inteqrasiyasında lazımi fəallıq göstərmirlər.[95] Uzun müddətli bir perspektiv ilə dəyərləndirmədikcə böyük güclərin geosiyasi maraqları daxilində olan Orta Asiya, dolayısı ilə Türk Dünyası üzərində sağlam strategiya inkişaf etdirmək çox çətindir. Bu baxımdan Türk Birliyinin bir utopiya olaraq qalmağa davam etməsi Azərbaycan üçün hələlik belə bir strateji situasiyanın yaranmayacağını göstərir;

---

[95] Nazimoğlu N. Naxçıvan Mərhələsi // Region plus. Analitik baxış, 15 oktyabr 2009, №20 (88), s. 18-21; Turgay D. "Türk Konseyi ve Türkistan'da Bütünleşme", http://www.21yyte.org/tr/yazi6725-Turk_Konseyi_ve_Turkistanda_ Butunlesme.html

Müasir geosiyasi şəraitə əsaslanaraq qeyd etmək mümkündür ki, orta müddətli perspektivdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi "atəşkəs" ssenarisinə uyğun olaraq davam edəcək. Belə bir vəziyyətdə "Zaman"ın Ermənistanın lehinə olduğunu düşünülə bilər. Düzdür, "Zaman" Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarında güclənmək imkanını yaratmış, Rusiyadan və digər dövlətlərdən alınan silahlarla militarist bir dövlətə çevrilmişdir. Lakin Ermənistan hərbi gücünü getdikcə artırmaq niyyətində olsa da, iqtisadi olaraq geriləmiş və çökmüş vəziyyətdədir. İqtisadi çöküşlə birlikdə demoqrafik tənəzzül də nəzərə alınarsa, "Zaman" qətiyyən Ermənistanın lehinə işləmir. Bu dövlət Azərbaycan torpaqlarını işğal etsə də, heç bir şəkildə qalib sayılmaz. Çünki ermənilərin faktiki olaraq özlərinə məxsus olmayan əraziləri ələ keçirməsi onlara bədbəxtlikdən başqa heç nə qazandırmayıb. Heç təsadüfi deyildir ki, "ikili standartlar siyasəti"ndən Ermənistan da öz nəsibini almışdır. Bunun ən açıq isbatı Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını tam olaraq mənimsəyə bilməməsi və zaman keçdikcə işğal etdiyi bölgələrin əsirinə çevrilməsidir. Həqiqət budur ki, onlar yad ideyaların qurbanlarıdır. Öz hədəflərini, gücünü, dostlarını və düşmənlərini tam olaraq təsbit edə bilməyən Ermənistan qonşu dövlətlərlə necə münasibət quracağını idrak etmiş deyil. Vəziyyətin belə davam edəcəyi, Azərbaycanla, eyni zamanda Türkiyə ilə necə münasibət quracağını idrak etmədiyi müddətcə Ermənistan iqtisadi baxımdan hər iki dövlətin təzyiqlərinə dözmək məcburiyyətində qalacaq, iqtisadi tənəzzüldən qurtula bilməyəcəkdir. Normal dövlət olmaq üçün ermənilər "Böyük Ermənistan" ideologiyasının yad ideya olduğunu dərk etməlidirlər. Məhz bunun nəticəsidir ki, Ermənistan uzun illərdir özünü inteqrasiya proseslərindən və enerji layihələrindən kənarda tutmuşdur. Azərbaycan isə torpaqlarının Ermənistanın işğalı altında olmasına baxmayaraq, iqtisadi baxımdan xeyli inkişaf etmiş, regionun lider dövləti halına gəlmişdir. Xüsusilə son dövrlərdə onun qlobal əməkdaşlığın enerji təhlükəsizliyinə xidmət edə bilən nəhəng infrastruktur layihələr həyata keçirməsi, zəngin karbohidrogen ehtiyatlarına sahib olması Azərbaycanın iqtisadi, siyasi və geosiyasi əhəmiyyətini göz önünə çəkməkdədir. Həmin bucaq altında "Cənub Qaz Dəhlizi"nin energetik, siyasi və geosiyasi əhəmiyyəti daha aydın şəkildə özünü göstərir.

Məlum olduğu kimi, XXI əsrdə enerji qaynaqlarına duyulan ehtiyacın artması bu amili strateji bir vasitə, karbohidrogen ehtiyatlarının yer aldığı bölgələri də bu strateji vasitənin geoiqtisadi hövzəsi olaraq geosiyasi rəqabət meydanına çevirmişdir. Bu baxımdan belə bir meydanda Azərbaycanın sahib olduğu zəngin təbii ehtiyatlar enerjiyə tələbatı olan dövlətlərin diqqətini özünə çəkmədədir. Müasir şəraitdə və rəqabətin böyük olduğu bir zamanda çoxlu

sayda tərəfdaşla nəhəng enerji layihəsini reallaşdırmaq doğrudan da çox mahir xarici siyasət, daha konkret desək, enerji strategiyası tələb edir. Rəsmi Bakı atdığı addımlarla həm öz maraqlarını reallaşdıra bilib, həm də böyük dövlətlərin maraqlarını qarşılıqlı fayda prinsipləri əsasında uzlaşdırıb.

Dissertasiyanın "Nəticə" hissəsində isə tədqiqatın əsas yekunları aşağıdakı kimi ümumiləşdirilmişdir:

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi qlobal səviyyədə diqqəti cəlb edir. Digər bir ifadə ilə, bu konflikt sözün əsl mənasında həm qlobal problemlərin əsas tərkib hissəsidir, həm də geosiyasi maraqların toqquşmasının başlıca nəticələrindən biridir. Hadisələrin gedişatı göstərir ki, problemin beynəlmiləlləşməsi məhz Rusiya da daxil olmaqla, böyük dövlətlərin regionda milli mənafelərinin toqquşması sayəsində mümkün olmuşdur.

Azərbaycan tərəfi rəsmi və qeyri-rəsmi səviyyədə keçirilən görüşlərdə konfliktin sülh yolu ilə həllinin beynəlxalq hüquq normaları əsasında mümkünlüyünü dəfələrlə bəyan etsə də, təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək, işğalçılıq siyasətindən əl çəkmək istəmir. Rəsmi Yerevan münaqişənin həlli yolları üzərində deyil, müddətsiz danışıqlar taktikasını seçməklə problemin yenidən mürəkkəbləşdirilməsi ilə bağlı ssenarilər üzərində baş sındırır. Lakin onu da qeyd etmək lazımdır ki, münaqişənin həllinə mane olan səbəb yalnız Ermənistanın özünün "işğalçı siyasəti" deyil. Rusiyanın ənənəvi siyasəti və Qərb dövlətlərinin "ikili standartlar" prinsipindən çıxış etmələri, BMT və ATƏT kimi beynəlxalq qurumların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret və kəskin addımlar atmaması da danışıqlar prosesində irəliləyişin əldə olunmasına əngəl törədir. Onlar məsələyə ATƏT-in Minsk Qrupu çərçivəsində yanaşırlar. Halbuki Minsk Qrupunun yeritdiyi fəaliyyətlər olduqca səmərəsizdir və heç bir nəticə vermir. Həmsədrlər müxtəlif ideyalar təqdim etdiklərini bildirirlər, lakin bu ideyalar münaqişənin həlli yollarını deyil, tərəflər arasında mövcud gərginliyi yumşaltmağa hesablanmışdır. Başqa sözlə, hazırkı proses danışıqların özü yox, onları necə bərpa etmək barədə müzakirələrdir və uğursuz olaraq davam etməkdədir. Artıq ictimaiyyətdə formalaşan rəy budur ki, münaqişənin həllinin yalnız bir açarı vardır. Bu da Azərbaycan və Ermənistanda deyil, Rusiyadadır. Hər şeydən əvvəl ona görə ki, Rusiya özünün geosiyasi və geoiqtisadi maraqlarına uyğun olaraq Cənubi Qafqaza keçmiş əyalətləri olaraq baxmaqda və bu orbitə kənar qüvvələrin yaxınlaşmasına qarşı çıxmaqdadır. O, təzyiq aləti kimi ənənəvi "erməni kartı"ndan istifadə etməkdə və Ermənistanı hər vasitə ilə silahlandırmaqdadır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etməsi əslində Qərbin aparıcı dövlətlərinin də maraqlarına uyğundur. Şübhəsiz ki, ortada ciddi səbəblər var:

Əvvəla, Qərb dövlətləri erməni məsələsinə milli və psixoloji baxımdan xüsusi etina ilə yanaşırlar. Onlar məsələni antitürk mövqeyi çərçivəsində dəyərləndirərək Ermənistanı dəstəkləyirlər. Bu dəstək bilavasitə keçmişdən miras qalan milli düşmənçilik və antitürk zehniyyətdən qaynaqlanır ki, Qərb keçmişdəki hadisələrin intiqamını "erməni amili" vasitəsilə almağa çalışmaqdadır.

Ermənistanın Qərb dövlətləri tərəfindən dəstəklənməsinin digər bir səbəbi isə Qərb dünyasının şüuraltında gizlənən "günahlardan arınma və ya təmizlənmə psixologiyası"ndan qaynaqlanır.

Məsələnin mahiyyətində tarixi düşmənçilik hissləri və antitürk zehniyyət dayandığından, bu dövlətlərlə Ermənistan arasındakı məsafə azalmaqda və birlikdə fəaliyyət göstərə bilməkdədirlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Qərb dövlətlərinin ikili standartlar mövqeyindən çıxış etmələrinin səbəbini də məhz bu amillərdə axtarmaq lazımdır. Düzdür, tarixdən miras qalan düşmənçilik hissləri Azərbaycandan daha çox Türkiyəyə şamil olunur. Lakin ortada qlobal erməni məsələsi olunca, bu amil dolayı olaraq öz növbəsində Azərbaycana da təsir edir. Bir tərəfdən Azərbaycan həm Türk sivilizasiyasının daşıyıcılarından biridir, digər tərəfdən də müharibə Qərbin maraqlarına cavab verən Ermənistanla aparılır. Məhz bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində əsas diqqət və dəstək Ermənistana verilir. Azərbaycanın cəlb olunduğu münaqişə lokal Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi çərçivəsində deyil, qlobal erməni məsələsi çərçivəsində diqqəti cəlb edir. Əgər münaqişədə Azərbaycan lehinə qərarlar qəbul edilərsə və ya Ermənistana təzyiqlər göstərilərsə, o zaman "erməni kartı" qismən də olsa zəifləyər və "günahlardan arınma metodologiyası" iflasa uğraya bilər.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bitməməsinin əsas səbəblərini və onun həllinə mane olan amilləri isə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Geosiyasi və iqtisadi maraqlarını əsas tutan Rusiya faktoru;
2. Ümumilikdə türklərə qarşı, Türk sivilizasiyasına qarşı antitürk zehniyyət;
3. Tarix boyu yəhudilər tərəfindən ittiham edilən, xolokostdan məsuliyyət daşıyan və dərin psixoloji gərginlik içərisində olan Qərb dövlətlərinin belə bir əbədi ləkədən və günah duyğularından qurtulmaq üçün erməni kartından istifadə etmələri, daha dəqiq bir ifadə ilə, Qərb dövlətlərinin şüuraltında gizlənən "günahlardan arınma" psixologiyası; (ikinci və üçüncü bəndlər birbaşa milli,

psixoloji və dini amillərlə bağlı olduğuna görə həmin faktorları Qərb və Türk sivilizasiyalarının qarşıdurması şəklində də xarakterizə etmək mümkündür).

4. Regional münaqişələrin ortaya çıxmasında və davam etməsində – ki, buna Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də daxildir – müəyyən mənafelər güdən böyük güclərin geosiyasi və geoiqtisadi maraqları;

5. İlk üç amildən, yəni geosiyasi və iqtisadi maraqlarını əsas tutan Rusiya faktorundan, tarixdən miras qalan antitürk zehniyyətindən və günahlardan arınma metodologiyasından, digər bir ifadə ilə, Qərb və Türk sivilizasiyaları arasındakı qarşıdurmadan yararlanmaq istəyən Ermənistanın "Böyük Ermənistan" ideyasını reallaşdırma düşüncəsi və həqiqətləri dərk etmək niyyətindən uzaq olması.

Yuxarıda sadalanan bu amillər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz real həllinə qovuşması yolunda başlıca maneələrdir. Yekun olaraq qeyd edək ki, tarixi və siyasi proseslərin təhlilinə əsaslanaraq gəldiyimiz nəticələr sırf faktiki materiallara və təhlillərə söykənir. Düzdür, problemlə bağlı məsələlərə müəyyən qədər də olsa, aydınlıq gətirməyə çalışmışıq. Lakin biz bu iddiada deyilik ki, tədqiq etdiyimiz belə bir araşdırma ilə problemin tam həllinə nail olmuşuq. Təbii ki, bu sahədə tədqiqatlar gələcəkdə də davam etdiriləcək. Buna görə də araşdırılan problemlə bağlı fikir və mülahizələrimiz müzakirə üçün həmişə açıqdır. Buna xüsusilə ciddi ehtiyac olduğunu bildirərək, düşüncələrimizi hər bir tədqiqatçı ilə paylaşmağa hazırıq.

Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı kitab və məqalələrində öz əksini tapmışdır:


1. Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü. Ankara: Naturel yayıncılık, 2004, 378 s.
2. Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 187 s.
3. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və Təhsil, 324 s.
4. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920). (Böyük Britaniyanın arxiv materialları əsasında). Naxçıvan: Əcəmi nəşriyyatı, 2016, 144 s.
5. Erməni kilsəsinin işğalçılıq və terrorizm siyasəti // Tarix və onun problemləri, Bakı, 2007, №1, s. 226-233.
6. Ermənilərdə "məzlumluq" psixologiyası, onun ideoloji vasitəyə çevrilməsi və beynəlxalq siyasətdə rolu // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2008, №1, s. 54-59.
7. Beynəlxalq terrorizmə qarşı mübarizə kontekstində erməni terroruna bir baxış // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2008, № 3, s. 40-46.

8. Ermənilərin Naxçıvana qarşı ərazi iddiaları dünya mətbuatında // Dirçəliş-XXI əsr, 2008-2009, № 130-131, s. 141-146.
9. Erməni məsələsi, kilsə və mövcud vəziyyət haqqında bir neçə söz // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2009, № 3, s. 56-62.
10. Ermənilərin 4 T planı çərçivəsində Naxçıvan iddiaları // Naxçıvan: İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, 2009, № 19, s. 73-81.
11. Türkiyənin "erməni açılımı" siyasəti və onun Azərbaycana təsiri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2010, № 1, s. 36-41.
12. Ermenilerin Türkiye ve Azerbaycan'a yönelik toprak iddiaları / Yeni Dönemde Türk Dış Politikası. Uluslararası IV. Türk dış poltikası sempozyumu tebliğleri. Ankara: Uluslararası Stratejik Araştırmalar Kurumu (USAK) yayınları, 2010, s. 379-390.
13. Ermənilərin Nuh peyğəmbərlə bağlı iddiaları və Naxçıvan məsələsi / Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, s. 262-269.
14. Ermənilərin "soyqırımı" iddiaları və onun İsrail-Ermənistan münasibətlərinə təsiri // Dirçəliş-XXI əsr, 2010, № 145-146, s. 173-179.
15. Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə mane olan amillər / Qarabağ: bildiklərimiz və bilmədiklərimiz. Bakı: Qafqaz Universiteti, Beynəlxalq Münaqişələri Araşdırma Mərkəzi nəşrləri, 2010, № 002, s. 38-56.
16. Batılı Hıristiyan devletlerin ermeni meselesi'ne psikolojik ve dini açıdan yaklaşımı // Gaziosmanpaşa Üniversitesi, Sosyal Bilimler Araştırmaları Dergisi, Tokat, 2011, cilt:6, sayı:2, s. 290-304.
17. Uluslararası ilişkiler boyutuyla Ermenistan-Azerbaycan çatışması // Çankırı Karatekin Üniversitesi, Sosyal Bilimler Enstitüsü Dergisi, Çankırı, 2012, cilt: 3, sayı:1, s. 139-160.
18. Erməni iddiaları və onun Cənubi Qafqaz ölkələrinə təsiri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2012, cild: 8, № 3, s. 25-32.
19. Hai-Taht ideolojisi bağlamında Ermenilerin işgal politikası ve Hocalı soykrımı // Fırat Üniversitesi, Orta Doğu Araştırmaları Dergisi, Elazığ, 2013, cilt: IX, sayı: 2, s. 219-231.
20. Kars antlaşması, Nahçıvan'la bağlı siyasi meseleler üzerine yeni bir değerlendirme ve ermeni iddiaları // Çankırı Karatekin Üniversitesi,

Avrasya Stratejik Uygulama ve Araştırma Merkezi, Uluslararası Avrasya Strateji Dergisi, Çankırı, 2013, cilt:2, sayı:1, s. 15-26.
21. The Armenian question in the context of the clash of civilizations and geopolitical interests, its impact on Armenia-Azerbaijani relations and vision of the near future // Review of Armenian Studies. A Biannual Journal of History, Politics and International Relations, Ankara, 2013, no: 27, p. 89-129.
22. Ermenistan-Azerbaycan çatışmasının yakın geleceği: barış mı, savaş mı, yoksa ateşkes mi? // Ermeni Araştırmaları Dergisi, Ankara, 2013, sayı: 45, s. 73-91.
23. “Böyük Ermənistan” ideologiyasının mifoloji əsasları // Journal of Qafqaz University. History, Law and Political Sciences, 2013, volume 1, number: 1, s. 38-45.
24. Ermənilərin “din” strategiyasının əsas istiqamətləri // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2014, say: 7-8, s. 65-81.
25. Rus ve ermeni kaynakları ışığında ermeni iddialarının mitolojik boyutu / Yeni Türkiye: Ermeni Meselesi özel sayısı IV, sayı: 63, 2014, s. 3167-3179. file:///C:/Users/Akad/Downloads/1228-Kesli-Rus_Ve_Ermeni_qaynaqlari_Ishighinda_Ermeni_Iddialarinin_Mitolojik_Boyutu-Emin_Shivaliyev-13s%20(6).pdf
26. XX yüzyıl başlarında ermenilerin Nahçıvan’da yaptıkları katliamlar / Ermeni Ayaklanmaları (1894-1909) Sempozyumu. Bildiriler. Ankara: Türk Tarih Kurumu, 2015, s. 243-264.
27. Ermənilərin soyqırımı iddiaları və onun beynəlxalq siyasətdə yeri: müqayisəli təhlillər və reallıqlar / “Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)” mövzusuna həsr olunmuş II beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Bakı, 2015, №52, 53, 54, 55, s. 438-443.
28. XX əsrin soyqırımı yalanı: uydurma, yoxsa reallıq? // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2015, cild:11, №3, s. 32-41.
29. Ermenistan-Azerbaycan çatışması: çözüm yolundaki temel sorunlar ve gelecek senaryoları // Bilge Strateji Dergisi, İstanbul, 2015, cilt:7, sayı:13, s. 31-54.
30. Çarlık Rusya tarafından ermenilerin Azerbaycan topraklarına göçürülmesi ve akabinde oluşturulan Ermeni Vilayeti (1828) (rus ve

ermeni kaynakları ışığında) // Çankırı Karatekin Üniversitesi, Avrasya Stratejik Uygulama ve Araştırma Merkezi, Uluslararası Avrasya Strateji Dergisi, Çankırı, 2015, cilt:4, sayı:1, s. 7-24.
31. "Büyük Ermenistan" düşüncesi ve bu ideolojinin Azerbaycan üzerinde etkisi / Geçmişten Günümüze Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Tebliğler. Bayburt: Bayburt Üniversitesi yayınları, 2015, s. 213-223.
32. Ermenilerin Nahçıvan iddiaları ve XX. yüzyılın başlarında yapılan katliamlarda Büyük Güçlerin rolü // Ermeni Araştırmaları Dergisi, Ankara, 2016, sayı: 53, s. 90-106.
33. Türkiye-Rusya ilişkilerinde Dağlık Karabağ sorunu: çözüm yolunda engeller ve öngörüler // TYB Akademi Dergisi, Ankara, 2016, sayı: 17, s. 109-135.
34. Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict: Obstacles to resolution and analysis of force usage // History Studies, International Journal of History, 2016, Volume: 8, Issue: 3, p. 135-150. http://www.historystudies.net/dergi//ermenistan-azerbaycan-daglik-karabag-sorunu-cozum-yolunda-engeller-kuvvet-kullaniminin-analizi-gelecek-ongoruler201610.pdf
35. Erməni iddialarının siyasi və mifoloji mahiyyəti // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2016, say: 1-2 (15-16), s. 47-62.
36. XX əsrin əvvəllərində ABŞ-ın Cənubi Qafqaz siyasətində "erməni amili" və Naxçıvan məsələsi // Strateji təhlil. Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, 2017, say: 1-2 (19-20), s. 87-103.
37. Rusiyanın Cənubi Qafqaz siyasətində erməni məsələsinin yeri və Naxçıvana təsiri (XIX-XX əsrin əvvəlləri) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Tarix və ictimai elmlər seriyası, 2017, № 2 (83), s. 20-24.
38. Erməni məsələsinin İngiltərənin Cənubi Qafqaz siyasətində yeri (1917-1920) (Böyük Britaniyanın arxiv materialları əsasında) / AMEA Qafqazşünaslıq İnstitutu, Qafqazşünasların I Beynəlxalq Forumu, elmi məruzələr. Bakı, 17-18 aprel 2017, s. 97-103.
39. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ikili standartların qurbanına çevrilmiş BMT qətnamələri // AMEA Naxçıvan Bölmə-

sinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2017, cild:13, №3, s. 78-83.
40. Russia's role in the Armenia-Azerbaijan conflict and vision of the near future // Transylvanian Review, Journal Citation Reports, Thomson Reuters, Romania, 2017, vol: XXV, No. 21, pp. 5429-5439..http://transylvanianreviewjournal.org/index.php/TR/article/view/1703
41. Ermənilərin soyqırımı iddiaları və yəhudi xolokostu: təhlillər, müqayisələr və tarixi reallıqlar / "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. Xüsusi buraxılış. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Bakı, 2018, №70, 71, 72, s. 452-456.
42. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Qərb dövlətlərinin ikili standartlar siyasətinin pərdəarxası // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2018, cild:14, №1, s. 30-37 və s.

**Э.А.ШИХАЛИЕВ**

# АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ СТОЛКНОВЕНИЕ ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ

## Резюме

Нагорно-Карабахская проблема является одним из самых больших препятствий в вопросе обеспечения безопасности и стабильности на Южном Кавказе. Несмотря на то, что с начала конфликта прошло уже около 30 лет, в вопросе будущего нерешающего конфликта между Арменией и Азербайджаном возникла неопределенная ситуация – ни войны, ни мира. В такой обстановке настоятельно требуется урегулировать конфликт в соответствии с нормами международного права, однако в силу различных позиций, занятых ведущими державами, такое урегулирование стало проблематичным.

В диссертации рассматриваются место “армянского вопроса” в международной политике и его влияние на армяно-азербайджанский, нагорно-карабахский конфликт, анализируются позиции великих и региональных государств в конфликте и сущность политики двойных стандартов, прогнозируется ближайшее будущее проблемы.

Диссертация состоит из введения, четырех глав, заключения и списка литературы.

Во **введении** диссертации обоснована актуальность темы, проанализирована степень её изученности и научной разработанности, определены цели и задачи исследования, показаны её научная новизна и практическая значимость.

В первой главе диссертации, названной **«Территориальные претензии Армении к Азербайджану и возникновение армяно-азербайджанского, нагорно-карабахского конфликта»,** освещаются исторические корни конфликта, вопрос о происхождении армян, их территориальные претензии, социально-политические причины возникновения геополитических корней конфликта, анализируется процесс урегулирования конфликта в годы правления общенационального лидера Гейдара Алиева, а также нынешняя ситуация.

Во второй главе **«Место «армянского вопроса» в международной политике и его влияние на армяно-азербайджанский, нагорно-карабахский конфликт»** на основе исторических фактов и

аналитического анализа доказано, что возникший вследствии столкновения западных и тюркской цивилизаций «армянский вопрос» непосредственно повлиял на армяно-азербайджанский, нагорно-карабахский конфликт. Главным выводом этих анализов является то, что позиции западных государств по конфликту и политика двойных стандартов напрямую связаны с столкновением этих цивилизаций. В силу того, что Азербайджан является одним из носителей тюркской цивилизации, он и оказался страной, пострадавшей от агрессии.

В третьей главе диссертации, названной **«Армяно-азербайджанский, нагорно-карабахский конфликт в контексте геополитических интересов великих и региональных держав»,** на основе фактических материалов в отдельности исследуются, с одной стороны, позиции Соединенных Штатов, ведущих европейских государств – Франции, Великобритании и Германии, также России, имеющей ключевое слово в регионе, занятые в армяно-азербайджанском конфликте, с другой стороны, позиции других ведущих акторов региона – Ирана и Турции и особая позиция Израиля, занятая в нем по определенным причинам.

В четверте глава **«Ближайшее будущее армяно-азербайджанского, нагорно-карабахского конфликта: мир, перемирие или война?»** в целом были даны прогнозы на ближайшее будущее конфликта, анализируются основные проблемы урегулирования конфликта в Нагорном Карабахе и факторы, препятствующие разрешению конфликтов.

В **заключении** обобщаются итоги научного исследования, где автор также предпринимает попытки спрогнозировать гипотетический сценарий развития конфликта в среднесрочной перспективе.

**E.A.SHIKHALIYEV**

# ARMENIAN AGGRESSION AGAINST AZERBAIJAN IN THE CONTEXT OF THE CLASH OF GEOPOLITICAL INTERESTS

## Summary

Nagorno-Karabakh conflict is one the greatest obstacles to security and stability in the South Caucasus. Although a truce was reached between Armenia and Azerbaijan in 1994 about Armenian occupation of 20% of the Azerbaijani territories, since then there is a vague situation as "neither war nor peace" between the two states. There has not been commitment to peace between two sides and the solution for this problem has been entrusted to the states and the process is accelerated by the OSCE Minsk Group. However, expectations for peace and the final resolution have not been reached since the OSCE Minsk Group started this process in 1994.

The dissertation examines the place of the Armenian question in international politics and its impact on the Armenian-Azerbaijani, Nagorno-Karabakh conflict, analyzes the positions of the great and regional powers in the conflict and essence of the double standards policy, and predicts the near future of the problem.

The dissertation consist the introduction, four chapters, the conclusion and literature.

In the **introduction** the problem urgency is grounded, degree of its studying and scientific development is analyzed, purpose and research problems are determined, its scientific novelty and practical importance is noted.

In the first chapter **"Armenians' territorial claims against Azerbaijan and the origin of Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict"** is investigated the historical roots of the conflict, the origin of Armenians, alleged claims, the socio-political causes of the geopolitical roots of the conflict, analyzed the conflict resolution process during the rule of national leader Heydar Aliyev, at the same time the current situation.

In the second chapter **"The place of the "Armenian question" in the international politics and its impact on the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict"** is noticed on the basis of historical facts and analytical analysis that the Armenian question as a by-product of clash of Western-Turkish civilizations and it has been proved that the Armenian question in one's turn affected to Armenia-Azerbaijan, Nagorno-Karabakh

conflict. The basis of the analyzes is that, Western states' attitudes towards conflict and double standards policy are directly related to the conflict of clash of Western-Turkish civilizations. It is not accidental that the Azerbaijan was seriously injured as one of the carriers of the Turkish civilization.

In the third chapter **"The Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict in the context of the geopolitical interests of great and regional powers".** In this chapter the position of the United States, the leading European states – France, Britain and Germany, at the same time, the position of Russia, which has the key word in the region, other leading actors of the region – Iran and Turkey, on the other hand, Israel's position based on certain reasons in the Armenia-Azerbaijan, Nagorno Karabakh conflict were analyzed on the basis of actual materials.

In the fourth chapter **"The near future of the Armenia-Azerbaijan, Nagorno-Karabakh conflict: peace, ceasefire or war?"** were made predictions for the near future of the conflict, the main problems in the settlement of the Nagorno-Karabakh conflict and factors that impede its solution were analyzed.

In the part of **Conclusion** the main scientific results of the research are generalized and the author attempts to predict the hypothetical scenarios of the conflict not in the long future.

Çapa imzalanmışdır: 25.06.2018
Formatı: 60/84, 16/1
Sifariş: 119
Sayı: 100

*AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.*

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ЭМИН АРИФ ОГЛЫ ШИХАЛИЕВ**

# АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ СТОЛКНОВЕНИЕ ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ

**Специальность: 5503.02 – Отечественная история**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание научной степени доктора наук по истории**

**НАХЧЫВАН – 2018**